RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 101 (9268) 16 MAY 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

◆ Prezident İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri



## İlham Əliyevin Şarl Mişel ilə görüşü

**Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 14-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Görüşdə dövlətimizin başçısı Brüsselə səfərə dəvətə görə Avropa İttifaqı Şurasının prezidentinə təşəkkürünü bildirdi.

Hər iki tərəf Azərbaycan və Ermənistan münasibətlərinin normallaşdırılması prosesinin Brüssel formatının bərpası ilə bağlı məmnunluqlarını ifadə etdilər. Prezident İlham Əliyev Şarl Mişelə bu istiqamətdə göstərdiyi səylərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı son aylar ərzində Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı baş verən hadisələr, Vaşinqton danışıqları, Azərbaycan-Ermənistan sərhədində vəziyyət, habelə bu gün Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə keçiriləcək üçtərəfli görüşün gündəliyi müzakirə olundu.

## Üçtərəfli görüş



Mayın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub.

## Səfər başa çatıb

Mayın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatıb.



## İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı və Cümhur İttifaqını təbrik edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.**

Dövlətimizin başçısı Türkiyədə keçirilən prezident və parlament seçkilərində səs çoxluğu qazanması münasibətilə Prezident Ərdoğanı və Cümhur İttifaqını təbrik edib.

Prezident İlham Əliyev qeyd edib ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyə Respublikası böyük inkişaf yolu keçib və bunun təzahürü olaraq qardaş türk xalqı öz liderinə bu seçkilərdə də etimad göstərib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və təbrikə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı dövlət başçıları iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin daimi və sarsılmaz olduğunu bir daha qeyd ediblər.

***Prezidentin Mətbuat Xidməti***

## Prezident İlham Əliyev bir sıra qəbullar keçirib






Prezident İlham Əliyev mayın 15-də Ərəb Parlamentinin Prezidentini, Özbəkistan Ali Məclisi Senatının Sədrini, Gürcüstan Parlamentinin Sədrini və Misir Ərəb Respublikası Parlamentinin Nümayəndələr Palatasının Sədrini qəbul edib.

→ 2

## Qardaşın möhtəşəm zəfəri

Prezident seçkilərinin ilk turunda birincilik qazanan Rəcəb Tayyib Ərdoğanın siyasi bloku da parlament seçkilərində üstünlüyü əldə etdi

→ 7

## Brüsseldə 5-ci görüş

Azərbaycan Ermənistan liderlərinin görüşündə müəyyən razılığa gəlinib

→ 6

## Şarl Mişelin mətbuata açıqlaması

**Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel mayın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlama verib.**

AZƏRTAC xəbər verir ki, Şarl Mişel açıqlamasında deyib:

- Axşamınız xeyir, xanımlar və cənablar. Bu gün biz böyük məmnuniyyətlə Prezident Əliyevi və baş nazir Paşinyanı Brüsseldə təşkil olunmuş beşinci görüşdə qəbul etdik. Bizim fikir mübadiləmiz səmimi, açıq və nəticəyönümlü idi. Əsas diqqət Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə yönəldilmişdi. Liderlər Cənubi Qafqazda sülhün bərqərar olunması üçün birgə istəklərini ifadə etdilər. Mən müvafiq səyləri təqdir edirəm. Biz gündəliyimizdə olan bütün məsələləri birlikdə nəzərdən keçirdik. Bu yaxınlarda sülh sazişi ilə bağlı ABŞ-də keçirilmiş müsbət danışıqlardan sonra bu impuls saxlanılaraq Azərbaycan ilə Ermənistan arasında əhatəli sülh sazişinin imzalanması üçün qətiyyətli addımlar atılmalıdır.

Sərhəd məsələlərində biz irəliləyişi və sərhədlərin delimitasiyası ilə bağlı atılacaq növbəti addımları müzakirə etdik. Həmin kontekstdə liderlər sərhəd məsələləri ilə bağlı ikitərəfli görüşlərin bərpasına dair razılığa gəldilər. Liderlər 1991-ci ilin Alma-Ata Bəyannaməsinə və Ermənistanın 29,800 kvadratkilometr və Azərbaycanın 86,600 kvadratkilometr ərazisinin toxunulmazlığına birmənalı sadiqliklərini təsdiq etdilər. Sərhədlərin delimitasiyasının yekunlaşdırılması danışıqlar vasitəsilə baş tutacaq.

Bağlantılar məsələsində tərəflər regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası istiqamətində müzakirələrdə aydın irəliləyişə nail olublar. Bu mövzuda xüsusilə də Naxçıvana və əks-istiqamətdə dəmir yolu əlaqəsinin bərpasına dair mövqelər olduqca yaxınlaşıb. Dəmir yolu əlaqələrinin bərpası ilə bağlı modallıqları və konkret qrafik üzrə zəruri inşaat işlərini özündə ehtiva edəcək ümumi razılaşmanın yekunlaşdırılmasına dair müvafiq heyətlərə təlimatlar verilib. Bu işdə tərəflər Ümumdünya Gömrük Təşkilatından dəstək alınmasına dair razılığa gəliblər.

Humanitar məsələlərə gəldikdə, qarşıdakı həftələr ərzində saxlanılan daha çox şəxslər azad ediləcəkdir. Öz tərəfimdən onu vurğuladım ki, sadəcə, yolunu azan və qarşı tərəfə keçən əsgərlərin sürətli prosedur vasitəsilə azad olunmalarına dair qarşılıqlı anlaşmanın təmin olunması davam etdirilməlidir.

Biz həmçinin itkin düşmüş şəxslərin taleyi ilə bağlı və minaların təmizlənməsi işinin sürətləndirilməsinin vacibliyinə dair müzakirələr apardıq.

Biz keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin hüquqları və təhlükəsizliyi məsələsi ilə əlaqədar müzakirələri davam etdirdik. Mən Azərbaycanı beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıq çərçivəsində həmin əhalinin hüquq və təhlükəsizliyinin təmin olunması ilə bağlı müsbət gündəliyin formalaşdırılmasına dəvət etdim. Mən həmçinin Bakının bu əhali ilə şəffaf və konstruktiv dialoq aparması zərurəti məsələsini qaldırdım. İnanıram ki, düşmənçilik ritorikasından çəkinmək, qarşılıqlı məqbul həll yollarına nail olmaq üçün xoş niyyət və liderliyin nümayiş etdirilməsi vacibdir.

Avropa İttifaqının gizli gündəliyi yoxdur. Bizim yeganə məqsədimiz Azərbaycana və Ermənistana əhatəli və ədalətli sülhə nail olmaqda kömək etməkdir. Biz onların birgə səylərinə dəstək verməyə hazırıq.

Biz Brüssel görüşlərini mümkün qədər tez-tez keçirmək barədə razılığa gəldik. Liderlər növbəti dəfə Brüsseldə iyul ayında görüşəcəklər. Artıq bəyan etdiyimiz kimi, biz yenidən yaxın gələcəkdə Fransa Prezidenti Makron və Almaniya Kansleri Şolts ilə Kişineuda keçiriləcək 2-ci Avropa Siyasi Birliyinin Zirvə Toplantısı çərçivəsində görüşəcəyik.

Mən həmçinin liderləri oktyabrda Qranadada təşkil ediləcək 3-cü Avropa Siyasi Birliyinin Zirvə Toplantısı çərçivəsində daha bir belə görüşə dəvət etmək niyyətindəyəm.

# *Ərəb Parlamentinin Prezidenti:* "Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilən tədbirlərdə iştirak etməkdən şərəf hissi duyuruq"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Ərəb Parlamentinin Prezidenti Adel bin Əbdulrəhman əl-Asumini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Adel bin Əbdulrəhman əl-Asuminin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakından məmnunluğunu ifadə etdi.

Prezident İlham Əliyev Ulu Öndərin Azərbaycanın ərəb ölkələri ilə münasibətlərinin inkişafına çox böyük töhfə verdiyini vurğulayaraq, bu gün də bu siyasətin davam etdirildiyini bildirdi, özünün ərəb ölkələrinin rəhbərləri ilə çoxsaylı görüşlərinin və qarşılıqlı səfərlərin bunun əyani sübutu olduğunu dedi. Xalqlarımızı ortaq tarixin birləşdirdiyini vurğulayan dövlətimizin başçısı ərəb ölkələri ilə münasibətlərin uğurla və hərtərəfli inkişaf etdiyini dedi, ötən il Ərəb Dövlətləri Liqasının Zirvə Toplantısına dəvət olunmasını əlaqələrimizin yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı ərəb ölkələrinin həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsi zamanı, həm də Zəfərimizdən sonra Azərbaycanla həmrəy olduqlarını yüksək qiymətləndirdi və Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də çoxsaylı qətnamələr qəbul olunmasının önəmini qeyd etdi.

Azərbaycan Prezidenti 30 illik işğal dövründə ermənilərin xalqımıza qarşı mədəni soyqırımı törətdiklərini bildirərək, həmin ərazilərdə onların İslam maddi-mədəniyyət irsini məhv etdiklərini, 67 məsciddən 65-ni dağıtdıqlarını diqqətə çatdırdı. Dövlətimizin başçısı Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işləri haqqında məlumat verdi.

Prezident İlham Əliyev Ərəb Parlamentinin Prezidentinin ölkəmizə səfərinin əməkdaşlığın genişlənməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən qonaq dedi: "Sizin kimi böyük dünya lideri ilə görüşməkdən və Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilən bu tədbirlərdə iştirak etməkdən şərəf hissi duyuruq".

Qonaq Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifənin və Bəhreyn Krallığının vəliəhdi, Nazirlər Şurasının Sədri Salman bin Həməd Al Xəlifənin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Bəhreynin Kralına və vəliəhdinə çatdırmağı xahiş etdi. Eyni zamanda dövlətimizin başçısı dost və qardaş ərəb ölkələrinin rəhbərlərinə də öz ehtiramını çatdırdı.

Ərəb Parlamentinin Azərbaycana qardaş ölkə kimi münasibət bəslədiyini bildirən qonaq Fələstin problemi ilə bağlı göstərilən dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısının Ulu Öndərin layiqli davamçısı olduğunu məmnunluqla qeyd edən qonaq Azərbaycan Prezidentinin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizin qazandığı nailiyyətləri vurğuladı. O, Azərbaycanın İslam dəyərlərinin müdrikliyi əsasında inkişaf edən və bu dəyərlərin hökm sürdüyü bir ölkə olduğunu dedi.

Ölkəmizə ikinci dəfə səfər etdiyini bildirən Adel bin Əbdulrəhman əl-Asumi daha əvvəl Azərbaycana Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı konfransında iştirak etmək üçün gəldiyini diqqətə çatdırdı.

Qonaq Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini təqdir etdiklərini bildirdi, ölkəmizin hərəkatın təsisatlanması, beynəlxalq səviyyədə nüfuzunun artması istiqamətində çox ardıcıl siyasət həyata keçirdiyini məmnunluqla vurğuladı.

Azərbaycan Prezidenti ölkəmizin İslam həmrəyliyini hər zaman dəstəklədiyini bildirdi. Bu xüsusda bir müddət əvvəl Fələstində Azərbaycanın diplomatik nümayəndəliyinin açılmasını, Azərbaycanın xarici işlər nazirinin Fələstinə səfərini və orada ölkəmiz tərəfindən məktəbin inşasını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın İslam Həmrəyliyi Oyunlarına evsahibliyi etməsini xatırlatdı, ölkəmizin Avropada islamofobiya meyillərinin artmasından narahatlığını ifadə etdi, bu cür meyilləri qınadığını dedi və bir müddət əvvəl Azərbaycanda islamofobiya ilə əlaqədar çox əhəmiyyətli beynəlxalq konfransın keçirildiyini vurğulayaraq, gələcəkdə bu xüsusda birgə platformanın yaradılmasının önəmini diqqətə çatdırdı.

Görüşdə Azərbaycanla İslam və ərəb dövlətləri arasında iqtisadiyyat, ticarət, investisiya sahələrində əlaqələrin genişləndirilməsinin vacibliyi diqqətə çatdırıldı, əməkdaşlığın birgə səylərlə daha da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Sonda qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi. Həmin hədiyyənin ancaq ərəb dövlətlərinin liderlərinə verildiyini vurğulayan Adel bin Əbdulrəhman əl-Asumi dedi ki, müstəsna hal kimi bu hədiyyəni Azərbaycan Prezidentinə təqdim etməkdən şərəf hissi duyur.

# Özbəkistanda Ulu Öndər Heydər Əliyevin xatirəsi dərin ehtiramla yad olunur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayevanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Tənzilə Narbayevanın rəhbərlik etdiyi nümayəndə heyətinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakını yüksək qiymətləndirərək Ulu Öndərin xatirəsinə göstərilən ehtirama görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Özbəkistana səfəri zamanı Prezident Şavkat Mirziyoyevlə birlikdə Ulu Öndərin abidəsinin və onun adını daşıyan parkın açılmasını da bu ehtiramın təzahürü olduğunu dedi. Ümummilli Liderin dost və qardaş Özbəkistanla və özbək xalqı ilə əlaqələrə böyük diqqət yetirdiyini xatırladan Azərbaycan Prezidenti bu siyasətin bu gün də bütün istiqamətlərdə davam etdiyini məmnunluqla vurğuladı. Prezident İlham Əliyev Özbəkistanın dövlət başçısı ilə dostluq münasibətlərinin ikitərəfli əlaqələrimizin genişlənməsi işinə xidmət etdiyini bildirdi və bu işdə qarşılıqlı səfərlərin önəmini qeyd etdi.

Dövlətimizin başçısı bu yaxınlarda Füzulidə olarkən Özbəkistan Prezidenti tərəfindən özbək xalqı adından hədiyyə olaraq burada inşa edilən məktəb binasında aparılan tikinti işləri ilə tanış olduğunu məmnunluqla bildirdi.

Prezident İlham Əliyev Tənzilə Narbayevanın ölkəmizə səfərinin də əlaqələrimizin inkişafı baxımından önəmini qeyd etdi.

Tənzilə Narbayeva ilk növbədə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdıraraq qeyd etdi ki, Özbəkistan Prezidenti strateji tərəfdaşlığa söykənən Azərbaycanla dostluq əlaqələrini yüksək qiymətləndirir və Azərbaycan Prezidentinə qardaşlıq münasibətləri bəsləyir.

Azərbaycan Prezidenti salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Şavkat Mirziyoyevin rəhbərliyi ilə Özbəkistanda uğurlu islahatların aparıldığını dedi, bu yaxınlarda keçirilmiş referendum münasibətilə təbriklərini çatdırdı.

Öz növbəsində Tənzilə Narbayeva hər iki dövlət başçısının rəhbərliyi ilə Azərbaycan və Özbəkistanda bütün sahələrdə uğurların əldə edildiyini vurğuladı.

Özbəkistan Ali Məclisi Senatının Sədri Ümummilli Liderin 100 illiyinə həsr olunmuş Milli Məclisin xüsusi iclasında iştirakından məmnunluq hissi keçirdiyini bildirərək Ulu Öndərin ölkələrimiz arasında dostluq münasibətlərinin qurulmasında xüsusi rolunu qeyd etdi. Vurğuladı ki, Özbəkistanda Ulu Öndərin xatirəsi dərin hörmətlə yad olunur və dahi şəxsiyyətin anadan olmasının 100 illiyi münasibətilə tədbirlər davam edir.

Qonaq bildirdi ki, torpaqlarımızı işğaldan azad etməklə Azərbaycan Prezidenti ata vəsiyyətini yerinə yetirib və Azərbaycan xalqının qəhrəmanı olaraq tarixi missiya həyata keçirib. O, eyni zamanda Qoşulmama Hərəkatına Azərbaycanın uğurlu sədrliyini xüsusilə qeyd etdi və ölkəmizin rəhbərliyi ilə hərəkatın nüfuzunun artdığını, onun təsisatlanması istiqamətində mühüm işlərin görüldüyünü vurğuladı.

Tənzilə Narbayeva mədəniyyət və humanitar sahələrdə əməkdaşlığımızın xüsusi əhəmiyyət kəsb etdiyini deyərək, bu xüsusda Azərbaycan Prezidentinin Özbəkistanın mədəniyyət xadimlərini, Özbəkistan Prezidentinin isə Azərbaycanın mədəniyyət xadimlərini təltif etmələrinin önəminə toxundu, bunun mədəniyyət işçilərinə böyük ruh verdiyini və həvəsləndirdiyini diqqətə çatdırdı.

Qonaq Özbəkistandan Azərbaycana səfər edən nümayəndə heyətlərinə daim göstərilən diqqətə görə də təşəkkürünü bildirdi.

Söhbət zamanı xalqlarımız arasında ortaq tarixi köklərin, mədəniyyət və dil bağlılığının olması xüsusilə qeyd edildi.

Görüşdə qeyd edildi ki, maşınqayırma, kənd təsərrüfatı, tekstil sənayesi, energetika, investisiya qoyuluşu və digər sahələr üzrə konkret layihələr və birgə fond var. Hər iki prezident tərəfindən bu layihələr davamlı şəkildə diqqət mərkəzində saxlanılır.

Ölkələrimizin beynəlxalq təşkilatlar, Türk Dövlətləri Təşkilatı çərçivəsində uğurlu əməkdaşlığı vurğulandı, gənclər sahəsində əməkdaşlığın, Azərbaycan və Özbəkistan gənclərini bir araya gətirən forumların keçirilməsinin önəmi bildirildi.

# Ümummilli Liderin Azərbaycan-Misir əlaqələrinin inkişafında böyük xidmətləri olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Misir Ərəb Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri Hanaf Ali Əl Gebalini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Misir parlamenti Nümayəndələr Palatasının sədrinə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə təşəkkürünü bildirdi. Ulu Öndərin Azərbaycanın dövlət quruculuğunda müstəsna rol oynamış bir şəxsiyyət olduğunu vurğulayan dövlətimizin başçısı eyni zamanda Ümummilli Liderin Azərbaycan-Misir əlaqələrinin inkişafında böyük xidmətlərini qeyd etdi.

Prezident İlham Əliyev Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycana səfərini məmnunluqla xatırlatdı, bu səfərin əlaqələrimizin inkişafına ciddi təkan verdiyini dedi. Səfər zamanı Azərbaycanla Misir arasında müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari əlaqələrin inkişafı, enerji, kənd təsərrüfatı, səhiyyə və digər sahələrdə əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu qeyd etdi.

Dövlətimizin başçısı Misir Prezidentinə salamlarını çatdırmağı xahiş etdi.

Azərbaycanda özlərini ölkələrindəki kimi hiss etdiklərini deyən qonaq Azərbaycanla Misir arasında çox möhkəm qardaşlıq münasibətlərinin mövcud olduğunu vurğuladı. "Azərbaycan bizə dost ölkədir və dostluğumuzun böyük tarixi var", - deyən Hanaf Ali Əl Gebali qeyd etdi ki, Misirdə Ulu Öndərin xatirəsi daim böyük ehtiramla anılır. O vurğuladı ki, ölkə üçün çox çətin vaxtlarda məhz Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycan bütün sınaqlardan uğurla çıxaraq inkişaf yoluna qədəm qoyub və Prezident İlham Əliyev bu siyasəti müvəffəqiyyətlə davam etdirir.

Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq etdikləri vurğulandı, bu xüsusda dövlətimizin başçısının Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında iştirakı məmnunluqla xatırlandı.

Qonaq Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu fəaliyyətinə görə təbriklərini çatdırdı, məhz Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının dünyada rolunun və nüfuzunun daha da artdığını qeyd etdi.

Misir Ərəb Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Heydər Əliyevin rəhbərliyi ilə strateji layihələr həyata keçirilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Gürcüstan Parlamentinin Sədri Şalva Papuaşvilini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanla Gürcüstan arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini dedi və parlamentlərarası əlaqələr sahəsində səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu bildirdi.

Prezident İlham Əliyev Şalva Papuaşvilinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakının əlaqələrimizin genişlənməsi baxımından önəmini qeyd etdi.

Dövlətimizin başçısı özünün Gürcüstana səfərini, Gürcüstanın Baş nazirinin isə Azərbaycana səfərini məmnunluqla xatırlatdı və bu səfərlər zamanı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi ilə əlaqədar çox ətraflı müzakirələrin aparıldığını qeyd etdi.

Prezident İlham Əliyev 1990-cı illərin əvvəllərində Azərbaycanın və Gürcüstanın üzləşdiyi problemlərə toxundu, birgə layihələrin icrasının əhəmiyyətini vurğuladı. Bu xüsusda ilk layihə kimi Bakı-Supsa neft boru kəmərinin reallaşdırıldığını diqqətə çatdırdı və bundan sonra digər layihələrin də uğurla həyata keçirildiyini dedi.

Bu gün ölkələrimizin bu layihələrin icrası sayəsində enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynadıqları vurğulandı. Həmçinin Orta dəhliz vasitəsilə nəqliyyat imkanlarının artırılmasında Azərbaycanla Gürcüstanın əməkdaşlığının mühüm əhəmiyyət kəsb etdiyi qeyd olundu.

Şalva Papuaşvili Ulu Öndərin 100 illiyinə həsr olunmuş tədbirdə iştirak etməkdən şərəf hissi keçirdiklərini bildirdi. Qonaq Ümummilli Liderin Azərbaycanın hərtərəfli inkişafındakı rolunu vurğulayaraq, eyni zamanda məhz onun rəhbərliyi ilə strateji layihələrin həyata keçirildiyini qeyd etdi. Gürcüstan Parlamentinin Sədri vurğuladı ki, vaxtilə Ulu Öndərin atdığı müdrik addımlar Azərbaycanın gələcəyi üçün böyük önəm daşıyır. O, Azərbaycanla Gürcüstan arasında strateji tərəfdaşlıq əlaqələrinin qurulması işində şəxsən Azərbaycan Prezidentinin roluna görə minnətdarlığını bildirdi.

Qonaq ölkələrimizin həyata keçirdiyi birgə layihələrin əhəmiyyətinə toxundu. Bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın Qara dənizin dibi ilə elektrik xəttinin çəkilişi layihəsini, həmçinin Azərbaycanla olan tərəfdaşlarla birlikdə Qara dənizin dibi ilə sualtı fiberoptik kabel xətti kimi irimiqyaslı layihələrin həyata keçirildiyini qeyd etdi.

Şalva Papuaşvili Gürcüstan üçün çətin dövrlərdə Azərbaycanın onun ərazi bütövlüyünü dəstəklədiyini yüksək qiymətləndirdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident İlham Əliyev!

Allahın salamı, bərəkəti və rəhməti üzərinizə olsun!

Müasir Azərbaycan dövlətinin banisi, atanız Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə zati-alinizə səmimi məhəbbət, hörmət və minnətdarlıq hisslərimi bildirməkdən məmnunluq duyuram. Uca Allahdan atanıza rəhmət, onun yolunu davam etdirərək dost Azərbaycan dövlətinin, xalqının inkişafı və rifahı uğrunda atdığınız addımlarda Sizə müvəffəqiyyətlər diləyirəm.

Cənab Prezident, İslam mədəniyyətimizdə belə bir deyim var ki, elə insanlar var onların istədikləri Allahın istədiyidir. Bu o deməkdir ki, insanlar üçün yaxşılıq iradəsi Allahın iradəsi ilə eyniləşir. Xeyirxahlığın ən yüksək və ən nəcib ayələri yaxşı idarəçilikdə təcəssüm olunur. Yaxşı idarəçilik iki əsas prinsipə əsaslanır: birinci prinsip Allahın razılığı və məhəbbəti, ikinci prinsip isə insanların etibarı və sədaqətidir.

Azərbaycan xalqına müdrik rəhbərliyi zamanı Allaha iman nuru ilə işıqlanan, xalq tərəfindən sevilən və onu sevən insanlardan biri də Prezident Heydər Əliyev olmuşdur, Allah onun ruhunu şad etsin! O, xalqı azadlıq, suverenlik və firavanlıq yoluna çıxardı.

Azərbaycanın və ümumən, Qafqaz regionunun çətin dövründə Prezident Heydər Əliyevin rəhbərliyi asan olmayıb. Ona görə də onun Azərbaycan xalqını və dövlətini nicata, suverenliyə, müstəqilliyə, ardından isə firavanlığa, inkişafa doğru aparması müstəsna nailiyyət idi.

Fransanın keçmiş Prezidenti Jak Şirak siyasəti mümkün olmayanı mümkün etmək sənəti kimi təsvir edib. Bu mənada Prezident Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərliyi zamanı əldə etdiyi uğurlar qeyri-mümkün olanı mümkünə çevirmək sənətinin nümunəsi idi. Bu gün eyni ruhla, eyni iradə ilə, eyni uğurla Siz atanızın yolunu davam etdirirsiniz.

Prezident Heydər Əliyev bir sıra çətinliklərlə üzləşdi və bu çətinliklərin qolunu bir-birinin ardınca bükməyə müvəffəq oldu. Budur, bu gün Siz müdrik, özünə güvənən və xalqının bütün çətinliklərinin öhdəsindən gəlməyə qadir olduğuna inanan rəhbər olaraq yeni çağırışların qarşısında əzəmət və qürurla dayanırsınız. Bu işdə ilk növbədə Allahın rizasına və zəfərinə, eləcə də Azərbaycan xalqının sədaqəti və etibarına arxalanırsınız. Bu çağırışların haradan gəlməsi önəmli deyil. Önəmli olan odur ki, Allahın razılığı və xalqın etibarı üzərinizə yağır. Qeyri-mümkün olanı mümkün, hətta qaçılmaz edən ilahi rizanın və xalq etimadının birləşməsidir.

Beləliklə, Prezident Heydər Əliyev taleyüklü çətinliklərin öhdəsindən gəlmək üçün qəbul etdiyi qərarların ölçüsünə görə böyük olduğu kimi, Siz də cənab Prezident, hazırda dünyada baş verən dəyişikliklər kontekstində çağırışlarla mübarizə aparmaq üçün verdiyiniz qərarların ölçüsünə görə böyüksünüz. Üstəlik, Allaha inamınız və sədaqətli Azərbaycan xalqına güvəniniz Sizi bu sınaqların öhdəsindən gəlmək üçün möhkəm qala içində qoruyur və qələbənin Tanrıdan gəldiyindən əmin edir.

Heydər Əliyevin anadan olmasının ildönümündə əziz Azərbaycan dövləti və xalqı üçün daha yaxşı gələcəyə yol açmaqda ümidlər təzələnir, inam güclənir.

Cənab Prezident, Allah Sizi qorusun və fəaliyyətinizdə uğurlar nəsib etsin!

*Sevgi və hörmətlə,*

***Məhəmməd Əl SAMMAK,***
***Livan İslam Ruhani Zirvəsinin Baş katibi,***
***Milli İslam-Xristian Dialoq Komitəsinin Baş katibi,***
***Ərəb İslam-Xristian Dialoqu Qrupunun katibi,***
***Lissabondakı Kral Abdullah bin Əbdüləziz Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin İdarə Heyətinin üzvü,***
***Nyu Yorkdakı "Sülh üçün Din" təşkilatının Yaxın Şərq regionu üzrə Baş katibi***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan xalqının dahi oğlu, dünyaşöhrətli dövlət və siyasət xadimi, iki dəfə Sosialist Əməyi Qəhrəmanı, müdrik, hörmətli və alicənab lider, böyük insan, öz xalqının xoşbəxtliyi və rifahı uğrunda yorulmaz mübariz Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 ili tamam olub. İcazə verin, bu əlamətdar yubiley münasibətilə zati-alinizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edim.

Siyasi müdrikliyi sayəsində hələ sağlığında canlı əfsanəyə çevrilən Heydər Əlirza oğlu Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinə nail olmaqla, öz xalqına demokratik və hüquqi dövlətdə yaşamaq imkanı hədiyyə etdi. O, öz xalqının xoşbəxt gələcəyi üçün bütün zəruri şəraiti yaradaraq özündən sonra möhkəm təməl qoydu.

Fəxr edirəm ki, Heydər Əliyev kimi görkəmli, zəhmətsevər şəxsiyyətlə çiyin-çiyinə işləmək və fəaliyyət göstərmək mənə nəsib olub. Mən onunla görüşlərimi xüsusi səmimiyyətlə və hörmətlə xatırlayıram, sevinirəm ki, o, mənim üçün əsl müdrik müəllim və gözəl dost olub. Heydər Əliyevin çoxsaylı dövlət mükafatları və təltifləri arasında Moskva Universitetinin Fəxri professoru - bizim universitetin ali mükafatının olması təhsil ocağımızda çalışan insanlar üçün xüsusi fəxrdir.

Çox hörmətli İlham Heydər oğlu, biz aydın şəkildə görürük ki, böyük respublikanın bu günü və gələcəyi möhkəm və etibarlı əllərdədir. Siz öz atanızın işini şərəflə, ləyaqətlə davam etdirir və səylərinizi əsirgəməyərək ölkəni inkişaf və tərəqqiyə doğru aparırsınız.

Biz Heydər Əlirza oğlunu, onun açıqfikirliliyini, sevdiyi işə sədaqətini, səmimiyyəti və sonsuz fədakarlığını, gələcək nəsillərin bəhrəsini görəcəyi vicdanlı əməyini heç vaxt unutmayacağıq.

*Dərin hörmətlə, Sizin*

***Viktor SADOVNİÇİ,***
***M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik***

# Azərbaycanın Baş naziri İordaniya Parlamentinin Nümayəndələr Palatasının Sədri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 15-də ölkəmizdə səfərdə olan İordaniya Haşimilər Krallığı Parlamentinin Nümayəndələr Palatasının Sədri Ahmed Al-Safadi ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Bakıda Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan xüsusi iclasının önəmi vurğulandı, İordaniyanın tədbirdə yüksək səviyyədə təmsil olunmasından məmnunluq ifadə edildi.

Azərbaycan-İordaniya əməkdaşlığının bir çox sahələrdə uğurla inkişaf etdiyi bildirildi, parlamentlərarası əlaqələrin müsbət dinamikası yüksək qiymətləndirildi.

Eyni zamanda iki ölkə arasında iqtisadi-ticari, investisiyaların təşviqi, humanitar, turizm və digər istiqamətlərdə əlaqələrin perspektivləri müzakirə olundu.

# Baş nazir Əli Əsədov Gürcüstan Parlamentinin Sədri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 15-də ölkəmizdə səfərdə olan Gürcüstan Parlamentinin Sədri Şalva Papuaşvili ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ş.Papuaşvilinin Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan xüsusi iclasında iştirakı yüksək qiymətləndirilib.

Azərbaycan ilə Gürcüstan arasında qarşılıqlı etimada əsaslanan əməkdaşlığın genişlənməsindən və strateji tərəfdaşlığın möhkəmlənməsindən məmnunluq ifadə olunub.

İki ölkə arasında əlaqələrin hərtərəfli inkişafında parlamentlərin rolu təqdir edilib.

Eyni zamanda ticarət-iqtisadi, enerji, nəqliyyat-tranzit, humanitar və digər sahələrdə münasibətlərin genişləndirilməsi perspektivləri müzakirə olunub.

# Əli Əsədov Belarus Baş nazirinin müavini ilə görüşüb

Mayın 15-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Belarus Respublikası Baş nazirinin müavini İqor Petrişenko ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Belarus arasında iqtisadi-ticari əməkdaşlığın, investisiya fəaliyyətinin və sənaye kooperasiyasının aktual məsələləri nəzərdən keçirilib. Azərbaycan və Belarus arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın bu gün Bakıda keçirilən növbəti iclasının əhəmiyyəti qeyd olunub.

Tərəflər qarşılıqlı maraq doğuran sahələrdə tərəfdaşlığın inkişaf perspektivlərini də müzakirə ediblər.



# Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının 13-cü iclası keçirilib

Mayın 15-də Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və Belarus Respublikası Baş nazirinin müavini İqor Petrişenkonun sədrliyi ilə iqtisadi-ticarət sahəsi üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının 13-cü iclası keçirilib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda iki ölkənin prezidentləri İlham Əliyev və Aleksandr Lukaşenko arasında fəal siyasi dialoqun Azərbaycan-Belarus əməkdaşlığının bütün spektri üzrə yüksək dinamikanı təmin etdiyi qeyd olunub.

İki ölkə arasında mövcud ticarət dövriyyəsinin ölkələrimizin iqtisadi potensialını tam əks etdirmədiyi və effektiv yolların tapılması ilə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilə biləcəyinə inam ifadə olunub.

Hökumətlərarası komissiyanın Azərbaycanda əlverişli investisiya mühitinin formalaşdırıldığı haqda yekdil fikirdə olduğu vurğulanıb.

Belarus iş adamlarının ölkəmizdə 80 şirkət qeydiyyatdan keçirdikləri və davamlı olaraq Belarus şirkətlərinin diler şəbəkələrinin genişlənməsi haqda faktlar elan edilib.

Eyni zamanda Azərbaycan şirkətlərinin Belarus iqtisadiyyatının inkişafına öz töhfələrini verdiyi qeyd edilib. Belarus investorları Ələt Azad İqtisadi Zonasına dəvət olunublar.

Azərbaycanın Belarusla aqrar-sənaye sektorunda əməkdaşlığın dərinləşdirilməsində maraqlı olduğu diqqətə çatdırılıb.

Baş nazirin müavini Əli Əhmədov ölkəmizin Belarus istehsalı məhsullarının Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə Türkiyəyə daşınması imkanlarını nəzərdən keçirməyə hazır olduğunu deyib.

Kimya sənayesi, bərpa edilən enerji, nəqliyyat-logistika, mədəni-humanitar, elm-təhsil, səhiyyə, əczaçılıq sahəsində əməkdaşlığın dərinləşdirilməsinin perspektivləri müzakirə olunub.

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov Ümummilli Lider Heydər Əliyevin 100 illik yubiley tədbirlərinin Belarusda keçirilməsinə göstərdikləri dəstəyə görə Belarus Respublikası Baş nazirinin müavininə təşəkkürünü bildirib.

İqor Petrişenko ona və rəhbərlik etdiyi nümayəndə heyətinə göstərilən yüksək diqqətə görə Azərbaycan tərəfinə təşəkkür edib. Belarus hökumətinin Azərbaycanla əməkdaşlığa xüsusi önəm verdiyini və əlaqələrin dərinləşdirilməsi üçün lazımi tədbirlərin görülməsinə hazır olduqlarını vurğulayıb.

Komissiyanın üzvləri Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, Belarusun sənaye nazirinin müavini Aleksandr Yefimov, kənd təsərrüfatı nazirinin müavini İvan Smilqin, Standartlaşma üzrə Komitənin birinci müavini Yelena Morqunova, Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini Balarəhim Quliyev və Belarusun ölkəmizdəki səfiri Andrey Rovkov ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin dərinləşdirilməsi və imkanların dəyərləndirilməsi istiqamətində məruzələrlə çıxış ediblər.

Hökumətlərarası komissiyanın növbəti iclasının Belarusda keçirilməsi haqda qərar qəbul olunub.

İclasın sonunda Belarusun İdman və Turizm Nazirliyi ilə Azərbaycanın Gənclər və İdman Nazirliyi arasında 2023-2025-ci illərdə bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığa dair proqram imzalanıb.

# Aİ-nin ali nümayəndəsi bölgədəki vəziyyət barədə məlumatlandırılıb

Mayın 15-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Brüsselə səfər çərçivəsində Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi və Aİ Komissiyasının vitse-prezidenti Cozef Borel ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında əməkdaşlıq əlaqələrinin mövcud vəziyyətini və perspektivlərini, o cümlədən energetika və nəqliyyat dəhlizləri sahəsində əməkdaşlığı, Azərbaycanla Ermənistan arasında normallaşma prosesini və bölgədə cari vəziyyəti müzakirə ediblər.

Görüş zamanı Brüsseldə Azərbaycan və Ermənistan liderlərinin 9 aya yaxın fasilədən sonra baş tutmuş son görüşünün sülh gündəliyinin irəlilədilməsi baxımından əhəmiyyəti vurğulanıb. Nazir Ceyhun Bayramov iki ölkə arasında münasibətlərin ərazi bütövlüyü və suverenlik prinsipləri əsasında normallaşmasına ölkəmizin sadiqliyini vurğulayıb. Ermənistanın son təxribatları daxil, prosesə maneçilik cəhdlərinin qarşısının alınmasının əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb. Bununla yanaşı, Ermənistanın mina təhdidlərinin aradan qaldırılmasının vacibliyi bildirilib.

Tərəflər eyni zamanda Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin hüquqi əsasını təşkil edəcək yeni saziş üzrə danışıqların tezliklə yekunlaşdırılmasının əhəmiyyətini qeyd ediblər.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri arasında telefon danışığı olub

Mayın 15-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Türkiyədə keçirilən prezident və parlament seçkilərində cənab Ərdoğanın və hakim partiyanın səs çoxluğu ilə irəlidə olması münasibətilə nazir Çavuşoğluna təbriklərini çatdırıb. Bu seçkilər nəticəsində qardaş Türkiyənin daha da güclənəcəyinə əminlik ifadə olunub.

Xarici işlər naziri Mövlud Çavuşoğlu göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib. Telefon danışığı zamanı həmçinin bölgədə cari vəziyyət və sülh danışıqları üzrə son yeniliklər müzakirə edilib.

# Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyasına işgüzar səfərə gedib



Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan nümayəndə heyəti Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün mayın 14-də Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə işgüzar səfərə gedib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə Moskva şəhərinin "Vnukovo-2" Beynəlxalq Hava Limanında nümayəndə heyətini Rusiya Dövlət Duması Sədrinin müavini Aleksey Qordeyev, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və digər rəsmi şəxslər qarşılayıblar.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Ərəb Parlamentinin Sədri ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova mayın 14-də ölkəmizdə səfərdə olan Ərəb Parlamentinin Sədri Adel bin Abdul Rahman Əl-Asumi ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova may ayının 16-da keçiriləcək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclası haqqında məlumat verib. O, müasir, müstəqil Azərbaycan dövlətinin banisi və memarı Ulu Öndər Heydər Əliyevin bütün dövrlərdə xalqımıza ləyaqətlə xidmət etdiyini, Azərbaycanın müstəqilliyinin əbədiliyini təmin etdiyini diqqətə çatdırıb. Sahibə Qafarova deyib ki, bu gün Azərbaycan Heydər Əliyev siyasətinə və ideyalarına sadiq qalaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu inkişafını davam etdirir.

Azərbaycanın ərəb ölkələri ilə əlaqələrinin hərtərəfli genişləndirilməsinə, o cümlədən Ərəb Dövlətləri Liqası ilə əməkdaşlığın inkişafına önəm verdiyini bildirən Milli Məclisin Sədri qeyd edib ki, ölkəmizin Ərəb ölkələri ilə münasibətlərinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu münasibətlər hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Spiker Azərbaycan Respublikası Milli Məclisinin Ərəb Dövlətləri Liqasının qanunverici orqanı olan Ərəb Parlamenti ilə əməkdaşlığın inkişaf etdirilməsində xüsusilə maraqlı olduğunu qeyd edib. O, Adel bin Abdul Rahman Əl-Asumi ilə 2021-ci ildə İspaniyanın paytaxtı Madrid şəhərində, cari ilin fevral ayında Misirin paytaxtı Qahirə şəhərində keçirdiyi görüşləri məmnunluqla xatırladaraq, Ərəb Parlamenti ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi arasında əməkdaşlığa dair anlaşma memorandumunun imzalandığını, bu sənədin əlaqələrimizin institusionallaşması baxımından əhəmiyyətini diqqətə çatdırıb. Sahibə Qafarova Ərəb Parlamentinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə müşahidəçi statusunun verilməsi barədə qərarını yüksək qiymətləndirib və əmin olduğunu ifadə edib ki, bu qərar iki təşkilat arasında əməkdaşlığın inkişafına təkan verəcək.

Görüşdə spiker Sahibə Qafarova Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri barədə də geniş məlumat verib. Milli Məclisin Sədri xatırladıb ki, Azərbaycan beynəlxalq hüququn hamılıqla tanınmış 5 prinsipi əsasında Ermənistana sülh təklif edib. Sülh sazişinin imzalanması regionda sülh, sabitlik və firavanlığa nail olmağın yeganə yoludur.

Səfərə dəvətə və göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Ərəb Parlamentinin Sədri Adel bin Abdul Rahman Əl-Asumi tədbirin əhəmiyyəti barədə fikirlərini bildirib. O, rəhbərlik etdiyi təşkilatın Azərbaycan Milli Məclisi ilə əlaqələrə əhəmiyyət verdiyini, Ərəb Parlamentinə üzv dövlətlərin Azərbaycanla uğurlu əlaqələrə malik olduğunu qeyd edib. Qonaq həmçinin Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyini yüksək qiymətləndirib. Adel Əl-Asumi ölkəmizin təşəbbüsü ilə yaradılan təşkilatın Parlament Şəbəkəsinin qısa vaxtda böyük işlər gördüyünü diqqətə çatdırıb və qeyd edib ki, bu, Azərbaycanın uğurlu parlament diplomatiyasının göstəricisidir. O, Ərəb Parlamentinin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə əlaqələrə böyük əhəmiyyət verdiyini bildirib.

Ərəb Parlamentinin Sədri Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin həm Madriddə keçirilən təsis yığıncağında, həm də Bəhreyndə təşkil olunan ikinci konfransında iştirakını xatırladaraq deyib ki, hər iki tədbir yüksək səviyyədə təşkil olunub.

Azərbaycana ilk dəfə səfər etdiyini qeyd edən Ərəb Parlamentinin Sədri paytaxt Bakı şəhərinin və ölkəmizin hərtərəfli inkişafının onda xoş təəssüratlar yaratdığını bildirib və əlavə edib ki, əldə olunan nailiyyətlər Azərbaycan hökumətinin uğurlu fəaliyyətini təsdiq edir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Dövlət Dumasında Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş sərgidə çıxış edib





Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə işgüzar səfər edən Azərbaycan nümayəndə heyəti mayın 15-də Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasına gəlib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarovanı Dövlət Dumasının Sədri Vyaçeslav Volodin qarşılayıb.

Sonra Azərbaycan nümayəndə heyəti Heydər Əliyev Fondunun dəstəyi ilə Rusiya Dövlət Dumasının inzibati binasında təşkil edilmişAzərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsində Heydər Əliyevin rolu" adlı sərgi ilə tanış olub. Sərgidə Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif məqamlarını əks etdirən zəngin fotoekspozisiya nümayiş etdirilib.

Sərgini TASS Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman açıb.

Sərgidə çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova tədbir iştirakçılarını salamladıqdan sonra görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş sərginin yüksəksəviyyədə təşkilinə görə minnətdarlığını ifadə edib.

Milli Məclisin Sədri Sahibə Qafarova deyib ki, elə liderlər var ki, onların fəaliyyəti bir dövlətin hüdudlarına sığmır. Onlar cəmiyyətə, dövlətin siyasi və iqtisadi kursuna və onun beynəlxalq münasibətlər sistemindəki əhəmiyyətinə həlledici təsir göstərirlər. Onlar öz xalqlarının tarixində mühüm rol oynayır, eyni zamanda dünya siyasətində də iz qoya bilirlər. Sahibə Qafarova Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin məhz belə bir şəxs olduğunu vurğulayıb.

Parlamentin spikeri diqqətə çatdırıb ki, 1969-cu ildə Heydər Əliyevin Azərbaycanın ali rəhbərliyinə seçilməsi ölkə tarixində böyük dönüşün başlanğıcı oldu. Həmin dövrdə onun məqsədyönlü və səmərəli fəaliyyəti nəticəsində Azərbaycanın qabaqcıl respublikalardan birinə çevrilməsi istiqamətində ciddi addımlar atıldı.

Sahibə Qafarova bildirib ki, Heydər Əliyev Sovet İttifaqının ali siyasi rəhbərliyinə yüksəlmiş nadir liderlərdən biri olub. 1982-ci ilin sonunda o, SSRİ Nazirlər Kabineti sədrinin birinci müavini vəzifəsinə təyin edilib, Siyasi Büronun üzvü seçilib. Spiker qeyd edib ki, Heydər Əliyevin adı iqtisadi və nəqliyyat sisteminin ciddi modernləşdirilməsi, iri infrastruktur layihələrin həyata keçirilməsi ilə bağlıdır və bunların arasında Baykal-Amur magistralının tikintisini xüsusi qeyd etmək lazımdır.

Milli Məclisin Sədri Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafına əvəzsiz töhfələr verdiyini söyləyib. Onun Azərbaycanın müstəqilliyinin bərqərar olunmasında və möhkəmləndirilməsində, beynəlxalq aləmdə nüfuzunun artırılmasında müstəsna rol oynadığını deyib. Sahibə Qafarova bildirib ki, XX əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə ictimai-siyasi sabitlik yaradıldıqdan sonra Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə müstəqil Azərbaycanın Konstitusiyası hazırlanıb və qəbul edilib.

Parlamentin spikeri Sahibə Qafarova qeyd edib ki, məhz Heydər Əliyevin sayəsində bu gün Azərbaycanda hüquqi, demokratik dövlət qurulub və inkişaf edir. Azərbaycanın Ümummilli Lideri dövlətimizin iqtisadi, enerji siyasətinin əsaslarını qoyub, Azərbaycanın genişmiqyaslı transmilli layihələrdə iştirakını təmin edib. Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış neft strategiyası ölkənin enerji sektorunun təkmilləşdirilməsi və Azərbaycan iqtisadiyyatının uzunmüddətli perspektivdə inkişafı üçün əsas olub.

Sahibə Qafarova Azərbaycan xalqının Ümummilli Liderinin Azərbaycanın xarici siyasət strategiyasının əsas istiqamətlərini və prioritetlərini müəyyənləşdirdiyini bildirib. O qeyd edib ki, Heydər Əliyev Azərbaycanla Rusiya arasında mehriban qonşuluq və dostluq münasibətlərinin qurulmasına xüsusi önəm verib.

Parlamentin sədri nəzərə çatdırıb ki, Heydər Əliyev ölkələrimiz arasında iqtisadi, enerji, humanitar, mədəni, elmi və digər sahələrdə əməkdaşlığın inkişafı üçün bütün potensial imkanlardan səmərəli istifadə etməyə nail olub.

Milli Məclisin Sədri Sahibə Qafarova müasir şəraitdə Heydər Əliyev ideyalarının Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyinin təqdirəlayiq olduğunu deyib. O, hal-hazırda Azərbaycanla Rusiya arasında münasibətlərin müttəfiqlik səviyyəsinə yüksəldiyini söyləyib. Sahibə Qafarova bildirib ki, bu gün Ümummilli Liderin bütün vəsiyyətləri müvəffəqiyyətlə həyata keçirilir. O qeyd edib ki, Azərbaycan regionun güclü dövlətlərindən birinə və etibarlı siyasi, iqtisadi tərəfdaşa çevrilib. Milli Məclisin Sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəsna rolunu vurğulayaraq, bildirib ki, onun rəhbərliyi altında postsovet məkanında ən uzunsürən və faciəli münaqişələrdən birinə son qoyuldu. Parlamentin spikeri nəzərə çatdırıb ki, 44 günlük Vətən müharibəsində Azərbaycan öz torpaqlarını erməni işğalından azad edərək ərazi bütövlüyünü və suverenliyini bərpa edə bildi.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ərazilərinin dirçəldilməsi və işğalçılar tərəfindən dağıdılmış tarixi şəhər və kəndlərin bərpası istiqamətində məqsədyönlü işlər görülür. Məcburi köçkünlərin daimi yaşayış yerlərinə dinc və təhlükəsiz şəkildə qayıtması üçün hərtərəfli fəaliyyət həyata keçirilir. Bu isə hər bir azərbaycanlının fəxr etdiyi bir şəxsiyyət və işıqlı xatirəsi xalqımızın qəlbində əbədi yaşayan görkəmli lider Heydər Əliyevin əsas vəsiyyətlərindən biri idi.

Sonra tədbirdə Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının Sədri Vyaçeslav Volodin çıxış edərək Ulu Öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti barədə fikirlərini bölüşüb. O, Heydər Əliyevin keçmiş SSRİ-dəki fəaliyyətini, Azərbaycan-Rusiya münasibətlərinin inkişafındakı rolunu yüksək dəyərləndirib.

Sərgidə Dövlət Dumasının fraksiya rəhbəri Gennadiy Züqanov, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxış edərək Ulu Öndər Heydər Əliyev haqqında xatirələrini və ürək sözlərini söyləyiblər.

Tədbirdə Rusiya Dövlət Dumasının deputatları, fraksiyaların rəhbərləri, ictimaiyyət nümayəndələri və kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak ediblər.

Tədbirdən sonra Milli Məclisin Sədri Sahibə Qafarova Dövlət Dumasının Sədri Vyaçeslav Volodinlə görüşüb. Görüşdə Milli Məclisin Sədri Ulu Öndər Heydər Əliyevin xatirəsinə göstərilən yüksək ehtirama görə minnətdarlığını bildirib.

Söhbətdə tərəfləri maraqlandıran məsələlər barədə fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova TASS Agentliyində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş sərgi ilə tanış olub

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə işgüzar səfər edən Azərbaycan nümayəndə heyəti mayın 15-də TASS Agentliyinin mənzil-qərargahına gəlib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, burada Azərbaycan nümayəndə heyətini TASS Agentliyinin baş direktoru Sergey Mixaylov, baş direktorun müavini Mixail Qusman və digər şəxslər qarşılayıblar.

Nümayəndə heyəti agentliyin mənzil-qərargahı qarşısındakı meydanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərgi ilə tanış olub.

Sərgidə görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin həyat və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar nümayiş etdirilib. Burada Heydər Əliyevin keçmiş SSRİ rəhbərliyində təmsil olunduğu illərdə ölkənin inkişafı üçün gördüyü işlərə və həyata keçirdiyi nəhəng layihələrə dair fotolar öz əksini tapıb. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan-Rusiya münasibətlərini əks etdirən fotolar da sərgilənib. Sərgi ilə tanışlıqdan sonra TASS Agentliyinin mənzil-qərargahında Azərbaycan nümayəndə heyəti ilə agentliyin rəhbər şəxsləri arasında görüş keçirilib.

***Ardı 5-ci səh.***

# Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federal Məclisinin Federasiya Şurasında Ulu Öndər Heydər Əliyevin yubileyinə həsr olunmuş sərginin açılışında çıxış edib






Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə işgüzar səfəri çərçivəsində mayın 15-də Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasına gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, inzibati binanın qarşısında Milli Məclisin Sədrini Federasiya Şurasının Sədri Valentina Matviyenko qarşılayıb. Nümayəndə heyəti burada Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil edilmiş Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş sərginin açılış mərasiminə qatılıb. Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, Milli Məclisin deputatları, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu, TASS Agentliyinin rəhbərliyi, Federasiya Şurasının üzvləri və digər rəsmi şəxslər iştirak ediblər.

Mərasimi giriş sözü ilə açan Federasiya Şurasının Sədri Valentina Matviyenko müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti haqqında fikirlərini bölüşüb.

Sərgidə Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirən fotoşəkillər nümayiş etdirilib.

Tədbirdə çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş sərginin yüksək səviyyədə təşkilinə görə Federasiya Şurasının Sədri Valentina Matviyenkoya təşəkkürünü bildirib.

Spiker Sahibə Qafarova deyib ki, Azərbaycanın müasir tarixinin bir qərinədən çoxu milli dövlətçiliyin banisi, görkəmli siyasi xadim Heydər Əliyevlə - adını ölkəmizin tarixinə əbədi həkk etmiş, ömrünü Azərbaycan xalqının rifahına xidmətə fəda etmiş dahi insanla bağlıdır.

Sahibə Qafarova diqqətə çatdırıb ki, Heydər Əliyevin liderlik keyfiyyətləri, uzaqgörən siyasəti, möhkəm iradəsi həm sovet dövründə, həm də Azərbaycanın ən taleyüklü məqamlarında özünü qabarıq şəkildə göstərmişdir. Qeyd olunub ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycanda rəhbərliyə gəldikdən sonra həyatın bütün sahələrində idarəetmə vektoru köklü surətdə dəyişmişdir. Kompleks inkişaf proqramlarının uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan ən inkişaf etmiş respublikalar sırasına daxil olmuşdur.

Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü kimi ölkəmiqyaslı bir sıra infrastruktur layihələrinin həyata keçirilməsində Heydər Əliyevin böyük rolu olub. Sahibə Qafarova onlar arasında Baykal-Amur magistralının inşasını xüsusi vurğulayaraq, həmçinin onun keçmiş SSRİ-nin beynəlxalq əlaqələrinin genişləndirilməsində və möhkəmləndirilməsində də Heydər Əliyevin böyük xidmətləri olduğunu qeyd edib.

Sahibə Qafarova bildirib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra da Heydər Əliyevin böyük təcrübəsinə, unikal qabiliyyətlərinə kəskin ehtiyac duyulmuş və Ulu Öndər həyatın bütün sahələrində yaranmış böhran, qeyri-sabitlik şəraitində dövləti xilas etmək, onun dağılması təhlükəsinin qarşısını almaq, iqtisadi, sosial, siyasi tənəzzülü aradan qaldırmaq kimi tarixi missiyanı öz üzərinə götürmüşdür. Spiker Sahibə Qafarova vurğulayıb ki, Ümummilli Liderin ən qiymətli əsəri olan müasir Azərbaycan dövlətçiliyi hazırda ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf etməkdədir.

Sahibə Qafarova Rusiya ilə bərabərhüquqlu əməkdaşlıq, bir-birinin maraqlarına hörmət və daxili işlərinə qarışmamaq kimi möhkəm təməllərə əsaslanan hərtərəfli münasibətlərin inkişafında və möhkəmlənməsində Heydər Əliyevin əvəzsiz rolunu xüsusi qeyd edib. Ümummilli Liderin xarici siyasətkursunun əsasını qoyduğu dövlətlərarası münasibətlərimizin əsas vektorlarından olan strateji əməkdaşlıq indi qarşılıqlı hörmət və etimada, bir-birinin maraqlarına diqqətlə yanaşmağa əsaslanan müttəfiqlik qarşılıqlı fəaliyyətinə çevrilmişdir. Dövlətlərimiz arasında tarixi dostluq və mehriban qonşuluq ənənələri, dərin əlaqələr, siyasi dialoq, humanitar əməkdaşlıq indi dövlət başçılarımız İlham Əliyevin və Vladimir Putinin yorulmaz səyləri nəticəsində dinamik inkişaf etməkdədir.

Spikeri Sahibə Qafarova deyib ki, biz Heydər Əliyevin bütün siyasi vəsiyyətlərini Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirə bilmiş xoşbəxt millətik. Bunların arasında Qarabağın erməni işğalından azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası ən görkəmli yer tutur.

Milli Məclisin Sədri 2020-ci ildə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin iştirakı ilə müharibəyə son qoyan üçtərəfli Bəyanatın imzalanmasında Prezident Vladimir Putinin səylərini və Rusiyanın rolunu xüsusi qeyd edib.

Sahibə Qafarova Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının tarixi ədaləti bərpa edəcəyinə, Cənubi Qafqaz regionunda yaşayan bütün insanlara sülh və firavanlıq gətirəcəyinə heç vaxt şübhə etmədiyini bildirib. Çünki silahlı münaqişələrə son qoyulması, onların dövlətlərarası münasibətlər sistemindən kənarlaşdırılması bütün xalqların maraqlarına xidmət edir. Sahibə Qafarova vurğulayıb ki, torpaqlarımıza - Şuşaya, Laçına, Kəlbəcərə, Cəbrayıla qayıdacağımızı deyən Heydər Əliyevin tarixi proqnozu bu gün artıq gerçəkləşib və hazırda işğaldan azad edilmiş ərazilərdə dinc həyata qayıtmaq üçün sürətli bərpa işləri aparılır, genişmiqyaslı infrastruktur layihələri icra edilir.

Çıxışının yekununda Sahibə Qafarova deyib ki, bu gün biz yaxın tariximizə nəzər salarkən Heydər Əliyevin ölkənin və hər bir azərbaycanlının rifahı naminə nə qədər böyük işlər həyata keçirdiyini görürük və qədirbilən xalqımız da həmişə öz böyük oğlunun xatirəsini qəlbində əziz tutacaq və yaşadacaqdır.

Sonda Spiker Sahibə Qafarova Federasiya Şurasının Sədri Valentina Matviyenkoya və Heydər Əliyev Fonduna bir daha öz minnətdarlığını bildirib.

Tədbirin bədii hissəsində uşaqlar çıxış edərək Azərbaycan və rus dillərində Ulu Öndər Heydər Əliyevin sevdiyi şeirlərdən parçaları səsləndiriblər.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarovanın Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə təkbətək görüşü olub. Görüşdə Sahibə Qafarova Ulu Öndər Heydər Əliyevin xatirəsinə göstərilən diqqətə görə dərin təşəkkürünü bildirib. O qeyd edib ki, burada keçirilən tədbirlər bu dahi şəxsiyyətin necə böyük bir zirvəni fəth etdiyini göstərir.

Söhbət zamanı Rusiya-Azərbaycan parlamentlərarası əlaqələrinin bu günü və gələcək inkişaf perspektivləri, həmçinin tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova TASS Agentliyində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş sərgi ilə tanış olub




*Əvvəli 4-cü səh.*

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin 100 illik yubileyinə göstərilən yüksək diqqətə və sərginin təşkilinə görə təşəkkürünü bildirib. Spiker diqqətə çatdırıb ki, Heydər Əliyevin adı həyatını xalqının yolunda fədakar xidmətə həsr etmiş dahi şəxsiyyət kimi Azərbaycan tarixinə əbədi həkk olunub. Heydər Əliyevin liderlik keyfiyyətləri, uzaqgörən siyasəti və güclü iradəsi tariximizin ən taleyüklü məqamlarında ona öz xilaskarlıq missiyasını uğurla həyata keçirməyə imkan verib. Ulu Öndərin müstəqil Azərbaycanın rəhbəri olduğu illərdə həyata keçirdiyi işlər bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qədirbilən xalqımız böyük oğlu Heydər Əliyevin xatirəsini həmişə uca tutur və onu minnətdarlıqla xatırlayır.




Söhbət zamanı TASS Agentliyinin baş direktoru Sergey Mixaylov və agentliyin əməkdaşları Ulu Öndər Heydər Əliyevin dahi şəxsiyyət kimi misilsiz fəaliyyətindən bəhs edib, onun Rusiya-Azərbaycan münasibətlərinin inkişafında oynadığı roldan, SSRİ rəhbərliyində təmsil olunduğu illərdə gördüyü böyük işlərdən danışıblar. Görüşdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov, deputatlar Mixail Zabelin, Elnur Allahverdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Ukrayna Ali Radasının nümayəndə heyəti ölkəmizdə səfərdədir

Mayın 15-də Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev ölkəmizdə səfərdə olan Ukrayna Ali Radasının Sədr müavini Olena Kondratyukun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisdə görməkdən məmnunluğunu ifadə edən Adil Əliyev onlara spiker Sahibə Qafarovanın salamlarını çatdırıb, Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr edilən Milli Məclisin xüsusi iclasında iştirak etməklə bağlı dəvəti qəbul edərək, ölkəmizə səfər etdiyinə görə nümayəndə heyətinə minnətdarlığını bildirib. Vitse-spiker Adil Əliyev 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan edilməsindən, ölkəmizdə Ümummilli Liderin 100 illik yubileyinin xüsusi təntənə ilə qeyd olunmasından söz açıb, görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti barədə danışıb.

Adil Əliyev Ulu Öndər Heydər Əliyevin şah əsəri olan bugünkü qüdrətli Azərbaycanın məhz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da qüdrətləndiyini, öz torpaqlarını Ermənistanın işğalından azad etdiyini diqqətə çatdırıb.Vitse-spiker postmünaqişə dövründə regiondakı vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işlərindən bəhs edib.

Vitse-spiker 44 günlük Vətən müharibəsinin bitməsindən artıq 3 il keçməsinə baxmayaraq, Ermənistan tərəfinin sülh müqaviləsini imzalamaqdan və üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq regionda kommunikasiyaların açılmasından boyun qaçırdığını diqqətə çatdırıb.

Söhbət zamanı Adil Əliyev Azərbaycan və Ukrayna arasında parlamentlərarası əlaqələrin inkişafının əhəmiyyətindən danışıb.

Ukrayna Ali Radasının Sədr müavini, nümayəndə heyətinin rəhbəri Olena Kondratyuk Ukraynaya göstərdiyi humanitar yardımlara görə Azərbaycan dövlətinə və xalqına minnətdarlığını ifadə edib, iki ölkə arasında əlaqələrin genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Görüşdə Milli Məclisin deputatı Erkin Qədirli ölkələrimizin tarixlərindəki oxşarlıqlardan danışıb.

Söhbət qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi ilə davam edib.

Görüşdə Milli Məclisin Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Məşhur Məmmədov, Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Xorvatiya parlament nümayəndə heyəti ilə görüş keçirilib

Mayın 15-də Milli Məclisin Sədr müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli Xorvatiya Parlamentinin Sədr müavini Davorko Vidoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə nümayəndə heyətini salamlayan vitse-spiker Fəzail İbrahimli Xorvatiya Parlamentinin Sədr müavini Davorko Vidoviçin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın inkişafına töhfə verəcəyinə əminliyini bildirib, onun Milli Məclisin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xüsusi iclasında iştirakını yüksək qiymətləndirib.

Fəzail İbrahimli Azərbaycanın müstəqillik tarixindən söz açıb, bu gün ölkəmizin inkişaf səviyyəsinə görə regionda ən qüdrətli dövlət olduğunu qeyd edib.

44 günlük Vətən müharibəsindən bəhs edən Fəzail İbrahimli Azərbaycanın Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılmış əzəli torpaqlarını azad etdiyini və öz ərazi bütövlüyünü bərpa etdiyini vurğulayıb. Bildirilib ki, hazırda işğaldan azad edilmiş ərazilərdə sürətli quruculuq işləri həyata keçirilir.

Milli Məclisin Sədr müavini Azərbaycanın xarici siyasətini dünyanın bütün dövlətləri ilə qarşılıqlı hörmət və beynəlxalq hüququn normaları əsasında qurduğunu deyib. Xorvatiyanın Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən olduğunu söyləyən vitse-spiker ölkələrimiz arasında qurulan diplomatik münasibətlərdən danışıb. Diqqətə çatdırılıb ki, Azərbaycanla Xorvatiya arasındakı əlaqələrin inkişafı üçün dövlət rəhbərləri və hökumətlər tərəfindən böyük yol qət olunub. Eyni zamanda parlamentlərarası əlaqələrin də kifayət qədər inkişaf etdiyini deyən vitse-spiker bu əlaqələrin möhkəmləndirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Xorvatiya parlamentinin sədr müavini, Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvü Davorko Vidoviç ölkələrimizin müstəqillik tarixlərindəki oxşarlıqlara nəzər salıb.

Azərbaycan və Xorvatiya arasındakı əlaqələrdən bəhs edən xorvatiyalı vitse-spiker COVID-19 pandemiyası zamanı Azərbaycanın Xorvatiyaya göstərdiyi tibbi yardıma görə minnətdarlığını bildirib. Xorvatiyanın minatəmizləmə sahəsində geniş təcrübəsinin olduğunu söyləyən nümayəndə heyətinin rəhbəri ölkəsinin Azərbaycanın işğaldan azad olunmuş ərazisində bu istiqamətdə fəal iştirak etmək istədiyini diqqətə çatdırıb.

Görüşdə çıxış edən Azərbaycan-Xorvatiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Könül Nurullayeva, qrupun üzvləri - Milli Məclisin komissiya sədri Eldar Quliyev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bu gün sürətlə inkişaf edən Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında aparılan quruculuq işlərindən danışıblar.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclisin Azərbaycan-Xorvatiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Qüdrət Həsənquliyev, Rauf Əliyev, İltizam Yusifov, Xorvatiya Parlamentinin Parlamentlərarası əməkdaşlıq komitəsinin sədri, Azərbaycanla dostluq qrupunun üzvü Erik Fabiyaniç, dostluq qrupunun üzvləri İvan Çeliç, Lyubitsa Maksimçuk, Xorvatiyanın Azərbaycandakı səfiri Branko Zebiç və digər rəsmi şəxslər iştirak ediblər.

# Dostluq qrupları arasında görüş

Mayın 15-də Milli Məclisin Azərbaycan-Xorvatiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə Xorvatiya parlamentinin Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvləri arasında da görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Xorvatiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Könül Nurullayeva Xorvatiya Parlamentinin Sədr müavini, Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvü Davorko Vidoviçin rəhbərlik etdiyi nümayəndə heyətini salamlayaraq bildirib ki, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələr inkişaf etməkdədir. Bu günə qədər Azərbaycan ilə Xorvatiya arasında 20-dən artıq sənəd imzalanıb. O, ölkələrimiz arasında strateji tərəfdaşlıq və dostluq münasibətlərinə dair imzalanmış Zaqreb Bəyannaməsini xüsusi vurğulayıb.

Könül Nurullayeva qarşılıqlı əlaqələrin möhkəmlənməsində parlamentlərarası münasibətlərin rolunu vurğulayaraq parlament dostluq qruplarının fəaliyyətinin bu istiqamətdə verə biləcəyi töhfələrdən bəhs edib.

Görüşdə çıxış edən Xorvatiya Parlamentinin Sədr müavini, Xorvatiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Davorko Vidoviç ikitərəfli münasibətlərin inkişaf perspektivlərinə toxunub, ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün görülə biləcək işlərdən bəhs edib.

Azərbaycan-Xorvatiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Rauf Əliyev, Vahid Əhmədov, İltizam Yusifov iki ölkə arasında münasibətlərin inkişaf perspektivləri ilə bağlı fikirlərini bölüşüblər.

Sonra söhbət qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi ilə davam etdirilib.

***"Azərbaycan"***



# Brüsseldə 5-ci görüş

## Azərbaycan Ermənistan liderlərinin görüşündə müəyyən razılığa gəlinib

İşğalçı Hayastanla Azərbaycan arasında 30 il davam edən keçmiş Qarabağ münaqişəsinə son qoyulsa da, hələ də tərəflər arasında sülh müqaviləsinin imzalanmaması regionda sabitliyin təmin olunmasına imkan vermir. Bunun da yeganə səbəbi Hayastanın cəfəng iddiaları, bəhanələri və hərbi təxribatlarıdır.

Ümumiyyətlə, sülh danışıqları ilə bağlı əsas amil Azərbaycan tərəfindən irəli sürülmüş 5 məlum prinsipin Hayastan tərəfindən qəbul edilməsidir. Bu, beynəlxalq hüququn norma və prinsiplərinin təməl qaydalarıdır. Ona görə də Azərbaycan əvvəlcədən bəyan edib ki, məhz bu prinsiplər üzərində ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və digər prinsiplər əsasında danışıqlar mümkündür və sülh müqaviləsi imzalana bilər.

Artıq hər kəsə bəllidir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Bu, tərəflər arasında Praqa və Soçidə keçirilən görüşlərdə təsdiqini tapıb. Belə ki, həmin görüşlərdə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Hayastan qəbul edib ki, Azərbaycan ilə Ermənistan arasında sərhədlər - 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında həll olunmalıdır. Bu da bir daha göstərir ki, müttəfiq respublikalar arasında olan sərhədlər dövlət sərhədləri sayılır.

Beləliklə, bu rəsmi addımı atmaqla Ermənistan rəsmən Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. Görünən odur ki, Ermənistan prinsip etibarilə Azərbaycanın məsələyə yanaşması ilə razıdır.

Mayın 14-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli növbəti görüşdə Azərbaycan və Ermənistan liderləri bir sıra məsələlərdə razılığa gəliblər. Liderlər 1991-ci ilin Alma-Ata Bəyannaməsinə müvafiq olaraq Ermənistanın 29,800 kvadratkilometr, Azərbaycanın 86,600 kvadratkilometr ərazisinin toxunulmazlığına sadiqliklərini təsdiq ediblər.

Ümumiyyətlə, postmünaqişə dövründə bütün görüşlərdə, danışıqlarda İlham Əliyev humanizm və ədalət prinsiplərinə sadiq lider kimi regionda sülhün və əməkdaşlığın təmin olunması üçün aydın siyasət yürütməklə nümunə göstərir. Dövlət başçısının Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığına işgüzar səfəri də ölkəmizin sülhə sədaqətinin növbəti davamı idi.

Brüsseldə keçirilən görüşdə Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı baş verən hadisələr, Vaşinqton danışıqları, eləcə də sərhəddəki vəziyyət müzakirə olunub...

Şarl Mişel üçtərəfli görüşün yekunlarına dair mətbuata açıqlama verərək bildirib ki, beşinci görüşdə fikir mübadiləsi səmimi, açıq və nəticəyönümlü olub. Onun fikrincə, əsas diqqət Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə yönəldilib. Liderlər Cənubi Qafqazda sülhün bərqərar olunması üçün birgə istəklərini ifadə ediblər: "Mən müvafiq səyləri təqdir edirəm. Biz gündəliyimizdə olan bütün məsələləri birlikdə nəzərdən keçirdik. Bu yaxınlarda sülh sazişi ilə bağlı ABŞ-də keçirilmiş müsbət danışıqlardan sonra bu impuls saxlanılaraq Azərbaycan ilə Ermənistan arasında əhatəli sülh sazişinin imzalanması üçün qətiyyətli addımlar atılmalıdır".

Şarl Mişel bildirib ki, sərhəd məsələlərində tərəflər irəliləyiş və delimitasiya prosesi ilə bağlı atılacaq növbəti addımları müzakirə edib və həmin kontekstdə sərhəd məsələləri ilə bağlı ikitərəfli görüşlərin bərpasına dair razılığa gəliblər: "Liderlər 1991-ci ilin Alma-Ata Bəyannaməsinə və Ermənistanın 29,800 kvadratkilometr və Azərbaycanın 86,600 kvadratkilometr ərazisinin toxunulmazlığına birmənalı sadiqliklərini təsdiq etdilər. Sərhədlərin delimitasiyasının yekunlaşdırılması danışıqlar vasitəsilə baş tutacaq".

Bağlantılar məsələsində tərəflər regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası istiqamətində müzakirələrdə aydın irəliləyişə nail olublar. Bu mövzuda xüsusilə də Naxçıvana və əks istiqamətdə dəmir yolu əlaqəsinin bərpasına dair mövqelər olduqca yaxınlaşıb. Dəmir yolu əlaqələrinin bərpası ilə bağlı modallıqları və konkret qrafik üzrə zəruri inşaat işlərini özündə ehtiva edəcək ümumi razılaşmanın yekunlaşdırılmasına dair müvafiq heyətlərə təlimatlar verilib. Bu işdə tərəflər Ümumdünya Gömrük Təşkilatından dəstək alınmasına dair razılığa gəliblər.

Humanitar məsələlərə gəldikdə, qarşıdakı həftələr ərzində saxlanılan daha çox şəxslər azad ediləcəkdir. Sadəcə, yolunu azan və qarşı tərəfə keçən əsgərlərin sürətli prosedur vasitəsilə azad olunmalarına dair qarşılıqlı anlaşmanın təmin olunması davam etdirilməlidir.

Şarl Mişel görüşün yekunlarına dair mətbuata açıqlamasında bəyan etdi ki, tərəflər Alma-Ata Bəyannaməsində qeyd olunduğu kimi ərazilərin toxunulmazlığına birmənalı sadiqliklərini təsdiq etməklə yanaşı, humanitar məsələlər, saxlanılan şəxslərin azad olunması, həmçinin itkin düşmüş şəxslərin taleyi və minaların təmizlənməsi işinin sürətləndirilməsi də müzakirə mövzusu oldu. Şarl Mişel xüsusi olaraq vurğuladı ki, Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanması üçün qətiyyətli addımlar atılmalıdır.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# Azərbaycan qətiyyətli mövqeyini Brüsseldə bir daha göstərdi

## Üçtərəfli görüşün gündəliyində Hayastanın iddialarının yer almaması göstərdi ki, Avropa İttifaqı Azərbaycanın hüquqlarına ehtiramla yanaşır

Mayın 14-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Hayastanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib.





Görüş çərçivəsində Azərbaycan-Hayastan münasibətlərinin normallaşdırılmasına dair məsələlər müzakirə edilib. Rəsmi Bakı 5-ci Brüssel görüşündə də qətiyyətli mövqeyini və iradəsini bir daha ortaya qoyub.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Deputatların sözlərinə görə, gündəlikdə olan məsələlər və görüş sonrası açıqlamalar Brüssel danışıqlarının Azərbaycan üçün uğurla nəticələndiyini göstərir.

### Hayastanın növbəti diplomatik fiaskosu

Milli Məclisin deputatı Sahib Alıyev deyib ki, Brüssel görüşünün formatının və gündəliyinin Azərbaycanın maraqlarına uyğun olması sevindiricidir: "Çünki Vaşinqton danışıqlarından sonra Azərbaycan Prezidenti İlham Əliyevlə Hayastanın baş naziri Nikol Paşinyanın iyunun 1-də Kişinyovda Almaniya kansleri, Avropa İttifaqı Şurasının və Fransanın prezindentləri ilə bir araya gələcəkləri açıqlanmışdı. Lakin Azərbaycan tərəfi bu görüşə razılıq verdiyini bildirməmişdi. Bunun səbəbi isə, Azərbaycanın Avropa İttifaqının moderatorluğu ilə keçiriləcək görüşdə Fransa prezidenti Makronun Nikol Paşinyana yandaşlıq etməsinin qəti əleyhinə olmasıdır. Bu, prinsipial mövqeyimizdir. Bu mövqe bütün görüşlərdə nəzərə alınmalıdır. Ona görə də hesab edirəm ki, Brüssel görüşünün məhz üçtərəfli formatda keçirilməsi Azərbaycanın təşəbbüsüdür və maraqlarımıza cavab verir".

Deputat qeyd edib ki, ötən ilin dekabrında da Brüsseldə belə bir görüşün keçirilməsi planlaşdırılmışdı, lakin Nikol Paşinyan Fransa Prezidenti ona yandaşlıq etməyəcəyi təqdirdə danışıqlara qatılmayacağını bildirdiyinə görə, görüş təxirə salınmışdı: "Amma göründüyü kimi, bu dəfə Fransa Prezidenti və Hayastanın baş nazirinin təhdidlərinə baxmayaraq, görüş məhz üçlü formatda baş tutdu. Brüssel görüşü ərəfəsində Hayastan Azərbaycanla şərti sərhəddə növbəti dəfə təxribatlar törətdi. Bu təxribatların məqsədi görüşün keçirilməsinə maneçilik törətmək, bu mümkün olmadıqda isə görüşün gündəliyini dəyişmək idi".

Sahib Alıyev vurğulayıb ki, Hayastan tərəfi görüşün gündəliyində Aİ Prezidenti Şarl Mişelin açıqladıqlarına uyğun deyil, tamam başqa məsələlərin olmasına çalışırdı: "Hayastan Laçın yolunda Azərbaycan tərəfinə məxsus sərhəd-buraxılış məntəqəsinin ləğv edilməsi məsələsinin müzakirəsini və bunun Avropa İttifaqı tərəfindən dəstəklənməsini istəyirdi. Şarl Mişelin açıqlamasından da görünür ki, Hayastanın bu istəyi reallaşmayıb. Hətta Azərbaycanın ərazi bütövlüyü artıq dəqiq rəqəm göstərilməklə dəstəklənib, Alma-Ata Bəyannaməsinə istinad edilərək Qarabağın Azərbaycanın tərkib hissəsi olduğu vurğulanıb. Həmçinin açıqlamalarda Laçın yolundakı sərhəd-buraxılış məntəqəsi ilə bağlı bir cümlə də yoxdur. Bu o deməkdir ki, Qərb Azərbaycanın öz suveren ərazilərində sərhəd-buraxılış məntəqəsi qurmaq kimi beynəlxalq hüquqla təsbit edilmiş haqqını qəbul edir".

### Azərbaycan sülhə xidmət edən hər bir təşəbbüsü dəstəkləyir

Milli Məclisin deputatı Azər Badamov deyib ki, mayın 14-də baş tutmuş üçtərəfli Brüssel görüşünün nəticələri Azərbaycan üçün müsbətdir: "Hayastan son günlər şərti sərhəddə təxribatlar törədərək Brüssel görüşünün nəticələrinə təsir etmək istəsə də, bütün cəhdləri boşa gedib. Bu görüş tərəflərin uzun fasilədən sonra sülh gündəliyinə qayıtdıqlarının göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyev müharibənin başa çatdığını və Hayastana sülh əlini uzatdığını çoxdan bəyan edib. Biz bu gün danışıqlar yolu ilə Hayastanla münasibətlərin normallaşdırılmasına və sülhə xidmət edən hər bir təşəbbüsü dəstəkləyirik. Regionda davamlı sülhün bərqərar edilməsini və əməkdaşlıq mühitinin formalaşmasını yüksək dəyərləndiririk. Yaxşı başa düşürük ki, müharibə və münaqişələr əbədi davam edə bilməz, müharibələrin sonu sülhlə nəticələnməlidir. Azərbaycan tərəfi regionumuzda sülhün ən qısa vaxtda bərqərar edilməsini və insanların təhlükəsiz yaşayışlarının tezliklə təmin olunmasını istəyir. Lakin bununla yanaşı, hərbi gücümüzü də gündən-günə artırır və düşmənin xain planlarına qarşı hazır vəziyyətdə dayanırıq".

Deputatın sözlərinə görə, Brüssel görüşündə tərəflər münasibətlərin normallaşdırılması, ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşılması, itkinlərlə bağlı məlumatların verilməsi və digər məsələləri müzakirə ediblər: "Görüşün gedişatı və nəticələri göstərir ki, gələcəkdə keçirilməsi nəzərdə tutulan görüşlərdə də Azərbaycanın mövqeyi əsas götürüləcək. Bu bir daha təsdiq edir ki, növbəti görüşlərdə də milli maraqlarımız nəzərə alınmaqla danışıqlar aparılacaq".

Azər Badamov bildirib ki, sülh gündəliyi məlumdur və danışıqlar Azərbaycanın təklif etdiyi şərtlərə əsaslanır: "Danışıqlar prosesində dövlətimizin mövqeyinə və iradəsinə zidd olan hər hansı bir məsələ müzakirə oluna və ya belə qərar qəbul edilə bilməz. Dövlət başçımızın ədalətli yanaşması, qətiyyətli mövqeyi danışıqların harada aparılmasından asılı olmayaraq, dəyişməzdir".

*Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"*

# *XİN:* "Brüssel görüşünü normallaşma gündəliyinin irəlilədilməsi baxımından faydalı və nəticəyönümlü hesab edirik"

Xarici İşlər Nazirliyi Avropa İttifaqı Şurasının Prezidentinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistan Respublikasının baş naziri arasında mayın 14-də Brüsseldə keçirilmiş növbəti görüşü şərh edib.

Bu barədə AZƏRTAC-a XİN-in Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, Avropa İttifaqı Şurasının Prezidentinin təşkilatçılığı ilə Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında bu formatda 14 may tarixli sayca beşinci görüşü iki ölkə arasında normallaşma gündəliyinin irəlilədilməsi baxımından faydalı və nəticəyönümlü hesab edirik.

İlk növbədə müxtəlif müdaxilə və şərtləndirmə cəhdlərinə görə 9 aya yaxın müddətdə fasilə verilən "Brüssel formatı"nda görüşün yenidən keçirilməsi tərəflər arasında ən yüksək səviyyədə dialoqun təşviqi baxımından əhəmiyyət kəsb edir.

Görüş zamanı Azərbaycan ilə Ermənistan arasında ikitərəfli sülh sazişi layihəsinin razılaşdırılması, sərhədlərin delimitasiyası və kommunikasiyaların bərpası istiqamətləri üzrə konkret nəticələrin əldə edilməsi məqsədilə ətraflı fikir mübadiləsi aparılıb.

Azərbaycan tərəfinin regionda sülh və sabitliyin təmin edilməsi ilə bağlı prinsipial mövqeyi bir daha tərəf-müqabillərin diqqətinə çatdırılıb. Xüsusilə dövlətlərin ərazi bütövlüyünə hörmətin bir daha təsbit olunması, bu kontekstdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün Ermənistan tərəfindən də qəbul edilməsi müstəsna əhəmiyyət daşıyır.

Görüş, həmçinin münaqişədən sonrakı normallaşma baxımından vacib olan humanitar məsələlərin müzakirəsi üçün bir fürsət təşkil edib. Bu kontekstdə, xüsusilə itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi və minasızlaşdırma sahələrində addımlar atılmasının sürətləndirilməsinin vacibliyi bir daha vurğulanıb.

"Azərbaycan ilə Ermənistan arasında bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı tanınması və hörmət olunması əsasında münasibətlərin normallaşdırılmasının regionda davamlı sülh və sabitliyin təmini üçün yeganə yol olduğunu bəyan edirik.

Bu istiqamətdə münasibətlərin normallaşması üçün tərəqqi əldə olunmasına dəstək verən səyləri alqışlayır, bu məqsədi güdən beynəlxalq tərəfdaşlarla dialoqu və qarşılıqlı fəaliyyəti davam etdirməyə hazır olduğumuzu bir daha təsdiqləyirik", - deyə açıqlamada bəyan edilib.

# Brüsseldə Azərbaycanın regiona davamlı sülh vəd edən təşəbbüslərinə qarşı Ermənistan alternativ təqdim edə bilmədi



"Avropa İttifaqı Şurasının Prezidentinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın Baş naziri arasında Brüssel formatında sayca beşinci görüş Azərbaycan üçün müsbət məqamlarla yadda qaldı. Bu görüş iki ölkə arasında normallaşma gündəliyinin irəlilədilməsi baxımından faydalı və nəticəyönümlü hesab edilir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı Vüqar İskəndərov söyləyib.

Əvvəla Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü bu dəfə Avropa İttifaqı platformasında etiraf etdiyini vurğulayan deputat deyib: "Bəlli olduğu kimi, görüşdə Azərbaycan tərəfinin regionda sülh və sabitliyin təmin edilməsi ilə bağlı prinsipial mövqeyi bir daha tərəf-müqabillərin diqqətinə çatdırılıb. Xüsusilə dövlətlərin ərazi bütövlüyünə hörmətin bir daha təsbit edilməsi, bu kontekstdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün Ermənistan tərəfindən də qəbul edilməsi müstəsna əhəmiyyət daşıyır. Yəni liderlərin ərazilərin toxunulmazlığına birmənalı sadiqliklərini təsdiq etmələri Azərbaycan diplomatiyasının növbəti tarixi qələbəsidir".

Deputat bildirib ki, görüşün başqa bir önəmi ondan ibarətdir ki, Ermənistan Zəngəzur dəhlizinin açılmasının zəruriliyini rəsmən etiraf etdi. "Bundan başqa, Azərbaycanın təşəbbüsü ilə Zəngəzur dəhlizinin reallaşması ideyası Avropa Birliyi tərəfindən dəstəklənmiş oldu. Bir sözlə, görünən odur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət yenə də öz sözünü dedi. Nəticədə də Azərbaycanın regiona davamlı sülh vəd edən təşəbbüslərinə qarşı Ermənistan hər hansı alternativ təqdim edə bilmədi", - deyə o vurğulayıb.

# "İlk təbrik qardaşdan gəldi"

## Türkiyə KİV-i İlham Əliyevin Rəcəb Tayyib Ərdoğana təbrikini manşet xəbəri kimi yaydı

**Böyük türk dünyasının lider dövlətləri olan Azərbaycan ilə Türkiyə arasında dostluğa, qardaşlığa əsaslanan çoxtərəfli və sürətlə genişlənən münasibətlər hər iki ölkəni daha güclü mövqe sahibinə çevirməkdədir.**

Səmimi dostluq, strateji tərəfdaşlıq üzərində köklənən Azərbaycan-Türkiyə münasibətləri zaman keçdikcə daha da möhkəmlənir, tarixin bütün sınaqlarından böyük uğurla çıxır. Qarşılıqlı münasibətlərin daim yüksək səviyyədə saxlanması, milli maraqları əhatə edən məsələlərdə tərəflərin bir-birini təmənnasız müdafiə etməsi Azərbaycan və Türkiyə rəhbərliyinin həyata keçirdikləri uğurlu siyasətin məntiqi nəticəsidir.

Hər iki dövlət istər regionda, istər dünyada, istərsə də öz daxillərində cərəyan edən hadisələrə də kifayət qədər həssaslıqla yanaşır. Bu mənada Türkiyənin qarşıdakı dövr üçün ictimai-siyasi həyatında böyük rol oynayacaq prezident seçkilərinin Azərbaycanın da xüsusi diqqətdə saxlaması tamamilə təbiidir.

Artıq seçkilərin ilkin nəticələrindən məlum olur ki, qardaş ölkədə çoxluq hazırkı prezident Rəcəb Tayyib Ərdoğanı və onun rəhbərlik etdiyi Cümhur İttifaqını dəstəkləyib. Bu münasibətlə Azərbaycan Prezidenti İlham Əliyev türkiyəli həmkarına telefonla ilk zəng edərək seçkilərin uğurla keçməsi və daha çox səs toplaması münasibətilə onu təbrik edib. Bildirilib ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyə Respublikası böyük inkişaf yolu keçib və bunun təzahürü olaraq qardaş türk xalqı öz liderinə bu seçkilərdə də etimad göstərib. Rəcəb Tayyib Ərdoğan isə göstərilən diqqətə və təbriklərə görə minnətdarlığını bildirib.

Bu mövzu türk KİV-nin diqqətini cəlb edib və geniş işıqlandırılıb. Rəcəb Tayyib Ərdoğanı ilk təbrik edən liderin məhz Prezident İlham Əliyev olması barədə onlarla teleşirkət, qəzet və internet portalı xəbərlər paylaşıb.




"Axşam" qəzeti isə "Türkiyə xalqı liderinə güvəndiyini göstərdi" başlıqlı xəbəri oxuculara çatdırıb. Bildirilib ki, Prezident Ərdoğana ilk təbrik telefon zəngi Azərbaycan Prezidenti İlham Əliyevdən gəlib.

"Milliyət" qəzeti "İlham Əliyev Erdoğanı təbrik etdi" başlıqlı xəbərində yazır ki, Rəcəb Tayyib Ərdoğanı təbrik edən ilk lider məhz Azərbaycan Prezidenti olub: "Türkiyədə seçkilərin nəticələri bəlli olduqdan sonra ilk olaraq Azərbaycan Prezidenti İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı təbrik edib".

"Türkiyə" qəzeti "İlham Əliyevdən Ərdoğana təbrik zəngi" başlıqlı xəbər yayımlayıb. Bildirilib ki, Rəcəb Tayyib Ərdoğanı ilk olaraq təbrik edən Azərbaycan Prezidenti İlham Əliyev seçkilərin nəticələrinə görə bütün Türkiyə xalqını təbrik edib.

"Haber Global" kanalı da "Əliyevdən Ərdoğana təbrik" başlıqlı xəbərə yer ayırıb. Kanal İlham Əliyevin "Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyə daha da inkişaf edib, iqtisadi sahədə böyük uğurlar qazanıb, beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənib" fikirlərini diqqətə çatdırıb.

"Sabah", "Posta" "Diriliş Postası", "Takvim" və digər qəzetlərdə "Ərdoğana ilk təbrik zəngi İlham Əliyevdən" başlıqlı xəbərlər dərc edilib.

Eyni xəbərləri agentliklərdən "Anadolu", "ajanskurumu.com.tr", "ekovitrin.com", "mynet.com", "medyradar.com", "habert.com", televiziya kanallarından "TrtHaber" də bölüşüb. "Azərbaycan Lideri Ərdoğanı təbrik etdi" başlığı ilə verilən xəbərlərdə qeyd olunur ki, İlham Əliyevin Rəcəb Tayyib Ərdoğanı zəng edərək təbrik edən ilk dövlət başçısı olması iki qardaş ölkə arasında əlaqələrin yüksək səviyyədə qurulmasının ən bariz nümunəsidir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin Rəcəb Tayyib Ərdoğanı seçkilərdə uğur qazanması ilə bağlı ilk olaraq təbrik etməsinə Türkiyənin media orqanları geniş diqqət ayırıb və bütün bunlar iki ölkə arasında qardaşlığın daha bir bariz təzahürü kimi qiymətləndirilib.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Qardaşın möhtəşəm zəfəri

## Prezident seçkilərinin ilk turunda birincilik qazanan Rəcəb Tayyib Ərdoğanın siyasi bloku da parlament seçkilərində üstünlüyü əldə etdi

**Mayın 14-də bütün dünyanın gözü Türkiyədə keçirilən prezident və parlament seçkilərinə yönəldi. Hər kəs türk millətinin namizədlər arasından kimi ölkənin 13-cü Prezidenti seçəcəyini böyük maraq və həyəcanla izləyirdi.**

Dünyanın gündəminə oturan bu birnömrəli sualın cavabı isə seçki qutularının açıldığı ilk zamanlardan etibarən bəlli olmağa başladı. Mayın 15-də son səslərin də sayılması ilə Türkiyə xalqının yenidən düzgün qərar verərək Cümhur İttifaqının namizədi Rəcəb Tayyib Ərdoğanı dəstəkləyərək gələcəyini ona etibar etdiyini bir daha real şəkildə ortaya qoydu.

Prezident seçkilərinin ilk turunda daha çox səs qazanan Rəcəb Tayyib Ərdoğanın siyasi bloku həm də parlament seçkilərində üstünlüyünü təmin etdi.

### Qutuların açıldığı ilk andan Ərdoğan rəqiblərini üstələdi

Cümhuriyyətin 100-cü ildönümündə keçirilən prezident və parlament seçkilərində partiyalar ittifaqlar formasında iştirak etdilər.

Rekord sayda seçicinin qatıldığı 14 may seçkilərində Cümhur İttifaqının namizədi AK Partiyanın sədri Rəcəb Tayyib Ərdoğan, Millət İttifaqının namizədi CHP sədri Kamal Kılıçdaroğlu və Ata İttifaqının namizədi Sinan Oğan Prezidentlik uğrunda mübarizə apardılar.

Türkiyədə Yüksək Seçki Qurumunun (YSK) yayım qadağasını aradan qaldırmasından sonra "Anadolu" və ANKA Agentliklərinin məlumatlarına əsasən, Rəcəb Tayyib Ərdoğanın səs nisbətinin rəqiblərini üstələdiyi məlum oldu.

### Qazanan türk milləti oldu

Səsvermə prosesi bitdikdən sonra Prezident Rəcəb Tayyib Ərdoğan sosial media hesabından, "Səsvermə prosesi Allaha şükür demokratiyamıza yaraşan şəkildə tamamlandı. İndi, həmişə olduğu kimi, seçki qutularından möhkəm yapışmağın vaxtıdır. Nəticələr qəti olana qədər millətimizin iradəsini qorumağa davam edəcəyik" deyə paylaşım etdi.

Türkiyə prezidentliyinə namizəd Rəcəb Tayyib Ərdoğan mayın 14-nü 15-nə bağlayan saatlarda Ankarada etdiyi "balkon çıxışı" zamanı seçicilərinə minnətdarlıq edərək qazananın heç şübhəsiz ölkəsinin, millətinin olduğunu söylədi: "Türkiyə bu seçkilərlə dünyada bənzəri olmayan demokratiya və milli iradə nümunəsi göstərib. Tariximizdə ən yüksək seçici fəallığı olan seçkilərdən birini keçirdik".

### Azərbaycandan tam dəstək

Azərbaycan xalqı da qardaş Türkiyədə keçirilən prezident və parlament seçkilərini yaxından izləyirdi. Eləcə də ölkəmizdə türk vətəndaşlarının səsverməsi keçirildi. Prezident və parlament seçkilərində Azərbaycandan səs verən türkiyəli seçicilərin çoxu Rəcəb Tayyib Ərdoğanı dəstəklədi.

"Anadolu" Agentliyinin rəsmi mənbələrə istinadən yaydığı məlumatda bildirildi ki, Azərbaycanda 15 məntəqədə keçirilən seçkilərdə seçicilərin 49,42 faizi AK Partiyanın sədri Rəcəb Tayyib Ərdoğanı, 41,92 faizi CHP sədri Kamal Kılıçdaroğluna səs verib. Digər namizədlərdən Sinan Oğan 6,42 faiz, Muharrem İncə isə 2,24 faiz səs alıb.

Bildirək ki, Rəcəb Tayyib Ərdoğanı seçkilərdə səs çoxluğuna görə ilk təbrik edən ölkə lideri də məhz Prezident İlham Əliyev oldu. Dar gündə olduğu kimi, xoş gündə də Azərbaycanın daim qardaş ölkə ilə bərabər olduğunu göstərdi.

Mayın 15-də Rəcəb Tayyib Ərdoğana telefonla zəng edən Prezident İlham Əliyev Türkiyədə keçirilən prezident və parlament seçkilərində səs çoxluğu qazanması münasibətilə Prezident Ərdoğanı və Cümhur İttifaqını təbrik edib. Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyənin böyük inkişaf yolu keçdiyini və bunun təzahürü olaraq qardaş türk xalqının öz liderinə bu seçkilərdə də etimad göstərdiyini söyləyib.

Telefon söhbəti zamanı dövlət başçıları iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin daimi və sarsılmaz olduğunu bir daha qeyd ediblər.

### Cümhur İttifaqı 321 deputatla parlamentdə təmsil olunacaq

Türkiyədə prezident seçkiləri ilə yanaşı, keçirilən parlament seçkilərində də Rəcəb Tayyib Ərdoğanı dəstəkləyən Cümhur İttifaqı böyük uğur qazandı. Onlar parlamentdə 321 millət vəkili ilə təmsil olunacaqlar.

Parlament seçkiləri ilə bağlı səsvermə qutularının 99 faizi açıldıqdan sonra nəticələrə əsasən məlum olub ki, Türkiyə Böyük Millət Məclisində Cümhur İttifaqına daxil olan AK Partiyanı 266, MHP-ni 50, Yenidən Rifah Partiyasını isə 5 deputat təmsil edəcək.

Millət İttifaqına daxil olan CHP-dən 169, İYİ Partiyadan isə 44 millət vəkili parlamentə düşə bilib. Həmçinin Yaşıl Sol Partiyası 62, TİP 4 millət vəkili ilə parlamentdə təmsil olunacaq.

### İkinci turun açarı azərbaycanəsilli Sinan Oğanın əlindədir

Parlament seçkilərindən fərqli olaraq prezident seçkiləri səs faizinin nəticələrinə əsasən ikinci tura qaldı.

Belə ki, seçkilərin birinci tur nəticələrinə əsasən Cümhur İttifaqının namizədi Rəcəb Tayyib Ərdoğan 49,51, Millət İttifaqının namizədi Kamal Kılıçdaroğlu 44,88 faiz səs aldı.

Mayın 28-də keçirilməsi planlaşdırılan ikinci turun kilid şəxsi isə Ata İttifaqının namizədi azərbaycanəsilli Sinan Oğandır. Birinci tur seçkilərində səslərin 5,17 faizinə sahib olan Oğanın səslərinin qalibin müəyyənləşməsində böyük təsiri olacağı şübhəsizdir.

### Türkiyə xalqı düzgün seçim etdi

Türkiyə xalqı bir daha Rəcəb Tayyib Ərdoğana yüksək etimad göstərərək düzgün qərarını verdi və Cümhur İttifaqını həm birinci tur Prezident, həm də parlament seçkilərində qalib etdi. Çünki hərtərəfli inkişaf etmiş və dünyanın ən qüdrətli, güclü ölkələrindən birinə çevrilmiş müasir Türkiyənin qurucusu məhz Rəcəb Tayyib Ərdoğandır.

"Türkiyə son 20 il ərzində böyük və şərəfli yol keçmişdir. Hörmətli Cümhurbaşqanının liderliyi ilə Türkiyə dünya çapında söz sahibinə çevrilmiş, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır", - deyən Prezident İlham Əliyevin söylədiyi kimi, qardaş ölkə son illərdə tarixindəki ən böyük inkişaf mərhələsini yaşayıb.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



## Azərbaycanın QURTULUŞ salnaməsi:
# Heydər Əliyevdən İlham Əliyevə
30



# Şuşa - Zəfərimizin və qürurumuzun rəmzi

**Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı etdiyi təbrik müraciətində Şuşanın şəxsən onun özü və bütün Azərbaycan xalqı üçün mahiyyətini açıqlayan bir fikir söylədi:**

"Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam. Şuşa zəfərimizin rəmzidir, Şuşa zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi zəfərimizin əsas hissəsi idi. Bildiyiniz kimi, ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır".

Şuşa Azərbaycanın Prezidentindən tutmuş sıravi döyüşçüyə, məktəbliyədək - hər birimiz üçün and yeri qədər müqəddəsdir. Şuşa ürəyimizdə əbədi alovlanan məşəldir. Neçə ildir xatirələr həsrətlə hamımızı Şuşaya çağırardı ki, bir də bu yerləri gəzib-dolaşaq, bu yerlərin ətrini ruhumuza hopduraq, ürəyimiz azacıq da olsa, toxtasın, yaddaşımızda xatirələr yenilənsin. Bu arzuya bizi Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu qovuşdurdu. Prezident İlham Əliyevin sözləridir: "Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik".

Hər kəsin həyatında elə hadisələr baş verir ki, istəsən də onları unuda bilmirsən. Yaddaşına həkk olunur, yuxularına qarışır və ömrün boyu səni qarabaqara izləyir, təsir dairəsindən buraxmır. Qarabağ dərdimiz də elə idi. Bircə an da olsa ondan ayrılmaq mümkün deyildi. Şuşanın işğalı yaddaşımıza milli faciə kimi hopmuşdu və qələbəyədək biz bu itkinin ağırlığını yaşamaq məcburiyyətində qalmışdıq. İşğal illəri bizə elə gəlirdi ki, sanki dar ağacından asılmışıq.

2001-ci ildə Gürcüstanda bir neçə beynəlxalq qurumun dəstəyi ilə Azərbaycandan və Ermənistandan müharibədə jurnalist kimi iştirak edən KİV nümayəndələrinin görüşü təşkil edilmişdı. Ermənilərdən dörd qadın gəlmişdi. Bizim aramızda isə qadın yox idi. Amma torpaqlarımız işğal altında olduğundan elə biz də özümüzü sözün birbaşa mənasında kişi hesab etmirdik.

Tədbirin erməni qanadı barış ruhuna köklənmişdi, amma biz bir qədər fərqli mövqe seçdik. Bizim tərəfdən müharibə iştirakçısı, jurnalist Tahir Paşa tədbirdə özünü bir qədər fərqli aparırdı, daha doğrusu, ermənilərə "ilişirdi": "Ay qız, sənin Yerevanda nə əcəlin azıb, gəl, səni aparım Bakıya, özünə heç olmasa bir gün ağla". Ermənilər isə özlərini "sülh göyərçinləri" kimi təqdim edirdilər. Onlara anlatdıq ki, niyyətləri sülhə can atmaq yox, işğalı əbədiləşdirməkdir. Sonra nümunə üçün ermənilərə "Bakinskiy raboçi" qəzetində dərc olunan kiçik bir məqalə verdim ki, bunu İrəvanda öz qəzetlərindən hansında istəsələr dərc etsinlər. Həmin məqalədə Bakı ermənisi paytaxtımızı necə sevdiyini, onu itirmək istəmədiyini yazırdı. Və eyni zamanda erməni "həmkar"larımdan erməni jurnalistlərinin azərbaycanlıların ağrılarından bəhs edən heç olmasa bir yazılarını göstərmələrini xahiş etdim. Cavab gəlmədi.

Aradan 23 il kecdi, ermənilərdən isə cavab gəlmədi. Əlacsız qalıb M.F.Axundov adına kitabxanaya getdim, rus dilində erməni mətbuatının 70 illik tarixini bir həftə vərəqlədim ki, bəlkə özüm nəsə tapdım. Amma azərbaycanlıların faciəsindən bəhs edən bircə yazıya da rast gəlmədim. Erməni qəzetlərini vərəqlədikcə elə təsəvvür yaranırdı ki, sanki Ermənistanda bircə nəfər də olsun azərbaycanlı yaşamayıb. Məqsədləri məlum idi. Elə Tbilisidə görüşəndə onlar arsızcasına bütün işgal edilmiş ərazilərin onlara qalmasını təmin edən bir sülhün həsrətində olduqlarını gizlətmirdilər. Zəbt edilmiş torpaqların bizim üçün nə qədər müqəddəs olması barədə isə onların anlayışı belə yox idi. Lakin biz onlara anlatdıq ki, nə qədər Şuşa işğal altındadır, yuxularımız ərşə çəkiləcək, düşmənçilik aradan götürülməyəcək, işğal bitməsə, yaramız qan sızacaq. Nə qədər ki müqəddəs torpaq - namusumuz, qeyrətimiz azad olunmayıb, düşmənçilik davam edəcək.

Bu gün nəinki Şuşa, bütün Qarabağ və Şərqi Zəngəzur azaddır. Artıq iki ildən çoxdur ermənilərin viran qoyduqları bu ərazilərimiz büsbütün yenidən qurulur. Prezident İlham Əliyev mayın 10-da Şuşadan etdiyi müraciətində bu barədə belə demişdir: "Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir, 10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir. On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir. Bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Qarabağdan reportaj

# Şuşaya Zəfər yolumuzu açan Hadrut

### Qarabağın bu dilbər guşəsi sürətlə Azərbaycanın ən gözəl ünvanlarından birinə çevrilir

**Qələbəmizin rəmzinə çevrilən Zəfər yolu ilə irəlilədikcə bir daha dövlətimizin qüdrətinə, gücünə şahidlik edirik. Düşmənin işğal dövründə viran qoyduğu bu ərazilərdə indi Azərbaycan dövləti xariqələr yaradır, nəhəng inşaat layihələri həyata keçirir.**

Yolumuz isə Xocavənd rayonunun Hadrut qəsəbəsinədir. O Hadrut ki, işğaldan azad olunması Vətən müharibəsinin mühüm hadisəsinə çevrilmiş, ordumuzun Şuşaya doğru yolu tam açılmışdı…

### Vətən müharibəsinin strateji qələbəsi

Hadrut rayon kimi 1992-ci ildə ləğv edilib və ərazisi Xocavənd rayonuna birləşdirilib. 1992-ci ilin oktaybr ayından isə Hadrut qəsəbəsi işğal altında idi. Qəsəbə strateji baxımdan mühüm mövqedə yerləşdiyindən Ermənistan ordusu işğal dövründə onun ətrafında olduqca güclü müdafiə-istehkam mövqeləri yaratmışdı. Digər tərəfdən, Hadrutun çoğrafi mövqeyi də təbii istehkam rolunu oynayırdı. Hadrutun ətrafında ermənilərin çoxsaylı hərbi birləşmələri dislokasiya olunmuşdu.

Lakin bütün bunlar Azərbaycan Ordusunun zəfər yürüşünün qarşısını ala bilməzdi. Təsadüfi deyil ki, Suqovuşan və Cəbrayıldan sonra ordumuzun işğaldan azad etdiyi ünvan Hadrut qəsəbəsi və onun ətrafındakı yüksəkliklər oldu. Qəsəbənin işğaldan azad olunması 44 günlük Vətən müharibəsində mühüm strateji qələbə oldu, ordumuzun növbəti uğurlu hücum əməliyyatlarına əlverişli imkanlar yaratdı. "Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsindəki əməliyyatlar sırasında xüsusi əhəmiyyət daşıyan əməliyyatdır. Həm hərbi nöqteyi-nəzərdən, həm strateji nöqteyi-nəzərdən bu əməliyyatın çox böyük əhəmiyyəti var idi. Bu əməliyyatın uğurla başa çatması bizə imkan verdi ki, öz hədəfimizə - Qarabağın azad edilməsinə nail olaq. Hadrutun yerləşməsi bu bölgədə strateji nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malikdir, çünki dağlıq ərazidir. Qəsəbə ətrafında yerləşən təpələr böyük əraziyə nəzarət etməyə imkan verir və Hadrutu götürmək hərbi nöqteyi-nəzərdən çox çətin idi. Eyni zamanda Hadrutu götürməklə bizim gələcək planlarımız üçün yeni imkanlar açıldı", - deyə Prezident İlham Əliyev Hadrut əməliyyatını dəyərləndirərkən bildirib.

Hadrutun işğaldan azad edilməsi Ermənistana çox böyük mənəvi-psixoloji sarsıntı yaşatmışdı. Bu baxımdan, Hadrutda hər birimizin qürur ünvanımız olan "Dəmir yumruq" abidəsinin qoyulmasının da bir rəmzi mənası var. Bu abidə Azərbaycanın Vətən müharibəsindəki zəfərini dünyaya bəyan edir.

### Kompleks quruculuq ünvanı

Azad olunandan sonra Hadrutun yenidənqurulması istiqamətində yeni layihələrin icrasına başlanılıb. Qəsəbədə olarkən bir daha burada görülən genişmiqyaslı işlərin şahidi olduq. Qəsəbə elektrik enerjisi ilə tam təmin olunub. Həmçinin su təchizatı da həll edilib.

Xəbər verildiyi kimi, mayın 5-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Hadrut qəsəbəsində salınacaq ilk yaşayış məhəlləsinin təməli qoyulub. Qəsəbədə öyrəndik ki, ilk yaşayış məhəlləsi 28 fərdi evdən ibarət olacaq. Tikiləcək evlərin ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olması nəzərdə tutulur. Mənzillərin sahəsi 70-120 kvadratmetr təşkil edəcək.



Hadrutdakı 360 şagird yerlik tam orta məktəbin də 2025-ci ilə qədər bərpa olunaraq istifadəyə verilməsi nəzərdə tutulur. Məktəb 1,9 hektar ərazidə yerləşir. Əsaslı təmir və yenidənqurma işlərindən sonra məktəbdə 15 sinif otağı, idman və



akt zalları, yeməkxana, kitabxana, hərbi dərs otağı, 3 laboratoriya və 2 texnologiya otağı, informatika otağı olacaq. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları müasir avadanlıq və ləvazimatlarla təchiz ediləcək.



Hadrutda inzibati zona da yaradılır. 4,2 hektar ərazini əhatə edəcək inzibati zona inzibati binadan, bələdiyyə binasından,



mədəniyyət mərkəzi və infrastruktur qurumlarının ofislərinin binalarından ibarət olacaq.

Hadrut qəsəbəsində tikiləcək və bərpa olunacaq obyektlərin və ətraf ərazilərin abadlaşması işlərinin də 2025-ci ildə başa çatması planlaşdırılır.

Hadrutda istifadəyə verilən "Hadrut" qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi də qəsəbənin yeni ünvanlarıdır. Xatırladaq ki, qovşaq yarımstansiyasının təməli 2021-ci il oktyabrın 9-da Prezident İlham Əliyev tərəfindən qoyulmuşdu. "Şükürbəyli", "Hadrut" və "Şuşa" yarımstansiyaları arasında yaradılan "Hadrut" qovşaq yarımstansiyası Hadrut qəsəbəsində qurulacaq müxtəliftəyinatlı infrastrukturun elektrik enerjisinə tələbatını ödəyəcək. Həmçinin yeni qovşaq yarımstansiyası Xocavənd rayonunun bir hissəsinin, Şuşa və ətraf ərazilərin elektrik təchizatının etibarlılığını və dayanıqlılığını təmin edəcək.




Yarımstansiyada Rəqəmsal Elektrik Şəbəkələrinin İdarəolunması Mərkəzinin yaradılması isə elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin artırılmasına imkan verir. "Hadrut" qovşaq yarımstansiyası bir neçə yarımstansiya ilə əlaqəli olduğu üçün və coğrafi mövqeyi əlverişli sayıldığına görə onun vasitəsilə Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarını da elektrik enerjisi ilə təchiz etmək mümkün olacaq.

Mərkəzdə Təlim-Tədris Kompleksində Beynəlxalq tədbirlərin keçirilməsi üçün bütün zəruri şərait yaradılıb. Kompleksin Regional Tədris Mərkəzində yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiq və istismar qaydaları, peşə vərdişlərinin əldə edilməsi, real iş şəraitində təlimlər və ustalıq yarışlarının təşkili nəzərdə tutulur.

### Qarabağın nəqliyyat qovşağı

Hadrut həm də Qarabağda yolların kəsişdiyi coğrafi mövqedə yerləşir. Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Vətən müharibəsindən sonra Hadruta yeni yolların çəkilişinə başlanılıb və onların bir qismi başa çatdırılıb. Elə Hadruta budəfəki səfərimiz də inşası başa çatmış Füzuli-Hadrut yolu ilə oldu.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Prezident İlham Əliyevin iştirakı ilə 2021-ci il martın 15-də təməli qoyulmuş, ümumi uzunluğu 12,3 km olan yol birinci texniki dərəcəlidir. Dörd hərəkət zolağı olan bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir.

Şükürbəyli-Cəbrayıl-Hadrut yolunun isə inşası davam edir. Uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzlənib. Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçən, Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla, həmin rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edən bu yol dörd hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilir. Yolun üzərindəki 6 körpünün hamısının tikintisi yekunlaşıb.

Xatırladaq ki, mayın 5-də Prezidenti İlham Əliyevin iştirakı ilə bu yolun 8,2 kilometrlik hissəsinin, ötən il oktyabrın 19-da isə 14,2 kilometrlik Şükürbəyli-Cəbrayıl hissəsinin açılışı olub. Yolun inşası 70 faiz yerinə yetirilib və işlər bu il tam başa çatdırılacaq.

### Hadrutun turizm potensialından səmərəli istifadə ediləcək

Hadrut əsrarəngiz coğrafi mövqedə yerləşdiyi üçün böyük turizm potensialı var. Ona görə qəsəbədə aparılan quruculuq işlərində turizm imkanlarından səmərəli istifadə edilməsi də qarşıda duran vəzifələrdən biridir. Hadrutda turizmin inkişaf etdirilməsi üçün Dövlət Turizm Agentliyi tərəfindən ilk növbədə qəsəbənin tarixi hissəsindəki mərkəzi məhəllənin bərpası və abadlaşdırılması nəzərdə tutulur.

Bu barədə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Hadruta səfəri zamanı da məlumat verilmişdi. Qəsəbənin tarixi hissəsində bərpa və konservasiya işləri çərçivəsində ilkin dövrdə Qafqaz Albaniyasının tarixi-mədəni irsinə aid məbədin, onun yanındakı üç tikilinin bərpası, həmin ərazinin abadlaşdırılması planlaşdırılır. Bu məbəd sonuncu dəfə 17-ci əsrdə bərpa olunub. İşğal dövründə Hadrutda olan bir sıra abidələr kimi, bu məbədin də tarixi mənşəyinə ermənilər tərəfindən müdaxilələr edilib. Məbəd və onun ətrafında bərpa və abadlaşdırma işləri görülməzdən əvvəl burada elmi-tədqiqat və arxeoloji qazıntıların aparılması nəzərdə tutulur.

Məhz bu hissədə bərpa və konservasiya işləri gələcəkdə Hadrutda aparılacaq tarixi tikililərin bərpa işləri üçün ilkin təcrübə olacaq və digər işlər bu təcrübəyə əsaslanaraq həyata keçiriləcək. Hadrutun mərkəzi hissəsində yerləşən tarixi mülkün isə bərpa edilərək, Turizm Məlumat Mərkəzi kimi fəaliyyət göstərməsi nəzərdə tutulur. Mərkəzdə Hadruta gələn ilk turist qruplarına qəsəbə və ətraf kəndlərdəki turizm obyektləri haqqında məlumat veriləcək.

Ordumuzun şücaət və qəhrəmanlıq göstərərək azad etdiyi Hadrutdan yüksət ovqatla ayrılırıq. Vətən müharibəsində qələbəmizin strateji ünvanlarından olan qəsəbə sürətlə dirçəlir, işğalın vurduğu yaralar tədricən aradan qaldırılır. Bir daha əmin olduq ki, Hadrut sürətlə Azərbaycanın ən gözəl ünvanlarından birinə çevrilir. Ən əsası isə Hadrut tarixən Azərbaycan xalqına mənsub olmuş yaşayış məskəni kimi şöhrətini özünə qaytarır.

***Rəşad CƏFƏRLİ,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

*Bakı-Hadrut-Şuşa-Bakı*

# Ölkəmizin də təmsil olunduğu Vindzor Kral Atçılıq Şousu başa çatıb







**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kral ailəsinin üzvlərinin şərəfinə ənənəvi olaraq təşkil edilən Vindzor Kral Atçılıq Şousu dünən başa çatıb.**

Bu barədə AZƏRTAC-a Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzindən məlumat verilib.

2012-ci ildən etibarən ölkəmizin dəvət aldığı bu beynəlxalq atçılıq şousu qədim və unikal mədəniyyətimizin tanıdılması üçün son dərəcə əhəmiyyətli platformaya çevrilib, nümayəndə heyətimizin hər il nümayiş etdirdiyi bənzərsiz şou-proqramlar və performanslar bu möhtəşəm tədbirin ayrılmaz hissəsi kimi qəbul edilib.

Milli sərvətimiz olan Qarabağ atlarının qorunub saxlanılmasına və məşhurlaşdırılmasına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ali diqqəti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi sayəsində son illər ərzində milli at cinslərimizin dünyada Azərbaycan brendi kimi tanıdılması istiqamətində əhəmiyyətli işlər görülür. Bu tədbirlər sırasında Vindzor Kral Atçılıq Şousunda Qarabağ atlarının füsunkar gözəlliyinin nümayiş etdirilməsi xüsusi yer tutur.

Vindzor Kral Atçılıq Şousunda ölkəmizi növbəti dəfə Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsi və rəqs ansamblı təmsil edib, artıq ənənəvi olaraq öz çıxışları ilə hər kəsi valeh etməyi, hər bir tamaşaçını heyrətləndirməyi bacarıblar. Təmsilçilərimizin milli geyimlərimizdə çıxışları xüsusilə fərqlənib, çoxsaylı tamaşaçı kütləsinin xüsusi rəğbətini qazanıb.

Cari ildə 80 yaşını qeyd edən bu tədbir üçün nümayəndə heyətimiz tərəfindən xüsusi şou-kompozisiya hazırlanıb. Azərbaycan xalqının çoxsaylı maddi və mənəvi sərvətlərini ifadə edən bu kompozisiyanın əsasını artıq Vindzor tamaşaçılarına çox yaxşı tanış olan, burada özünə heyranlar ordusu qazanmış, çılğınlığı və gözəlliyi ilə seçilən Qarabağ atları, eləcə də zərif Azərbaycan rəqsləri və ecazkar milli musiqimiz təşkil edib.

Milli musiqi alətlərimiz tütək, zurna, balabanda və digərlərində ifa olunan milli mahnıların bənzərsiz sədalarından, "Sərhədçi" rəqs ansamblının hərarətli rəqslərindən, Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin Qarabağ atları üzərində igidlik və hünər nümunələrindən ibarət şou-kompozisiya Böyük Britaniya tamaşaçısını, sözün əsl mənasında, ovsunlayıb. Nəzərdə tutulmuş tarixlərdə hər gün 15 dəqiqə davam edən şou müddətində süvarilərimizin başları üzərində Azərbaycan Respublikasının və Böyük Britaniyanın dövlət bayraqlarını dalğalandırmaları diqqəti xüsusilə cəlb edib.

Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə hazırlanmış şou-kompozisiyanın quruluşçu rejissoru, Əməkdar jurnalist Rövşən Cahangirov, xoreoqrafı Dövlət Sərhəd Xidmətinin rəqs ansamblının bədii rəhbəri, Əməkdar artist Fərid İbrahimov və süvarilər dəstəsinin quruluşçu təlimatçısı İmran Əhmədlidir.

Mayın 14-də mötəbər qonaqların iştirakı ilə Azərbaycan Günü keçirilib. Həmin tədbirlər ərəfəsində verilmiş ziyafətdə Azərbaycandan məhz bu tədbir üçün xüsusi olaraq hazırlanmış məhsullarla, "Mangal Steak House Zuqulba" sarayının rəhbəri Namik Məmmədovun və baş aşpaz Oktay Cəfərovun hazırladıqları milli mətbəximizin nümunələri qonaqlara təqdim olunub. Nahar ziyafətinə digər mötəbər qonaqlarla yanaşı, Edinburqları hersoqu, şahzadə Edvard və xanımı Edinburq Hersoginyası və digər kral ailəsi üzvləri qatılıblar.

Heydər Əliyev Fondu tərəfindən təşkil olunmuş Azərbaycan pavilyonunda Qarabağ atının təsvirləri, tarixi çövkən yarışlarının fotoşəkilləri və bunlara dair qonaqlara verilən məlumatlar böyük maraqla qarşılanıb. Pavilyonda həmçinin dekorativ-tətbiqi sənət rəssamı Aygün Nağıyevanın əsərlərindən ibarət 22 əl işi nümayiş etdirilib və "Qarabağ möcüzəsi" əsəri şahzadə Edvarda hədiyyə edilib.

Ziyafətin sonunda şahzadə Edvardla Azərbaycan Respublikası Atçılıq Federasiyasının nümayəndə heyəti görüşüb və şahzadəyə xüsusi hədiyyələr təqdim olunub.

# Türkiyə xalqı bu dəfə də yanılmadı

**Mayın 14-də Türkiyədə keçirilən Prezident və parlament seçkiləri başa çatıb. Parlament seçkilərində Ədalət və İnkişaf partiyası (AK Parti) çox səs toplayaraq lider olub. Cümhur İttifaqına daxil olan AK Partiya 266, MHP 50, Millət İttifaqına daxil olan CHP 169, İYİ Partiya isə 44 deputatla parlamentdə təmsil olunacaq.**





Prezident seçkiləri isə ikinci tura qalıb. Mayın 28-nə təyin olunmuş ikinci turda qalib sadə səs çoxluğu ilə müəyyən ediləcək. Prezidentlik uğrunda mübarizə Cümhur İttifaqından Rəcəb Tayyib Ərdoğan və Millət İttifaqından Kamal Qılıncdaroğlu arasında gedir.

Türkiyədəki seçkilərlə bağlı siyasətçilərin proqnozları isə müxtəlifdir.

## Ədalət və İnkişaf Partiyasının qalib gəlməsi cəmiyyətin etibarının göstəricisidir

Milli Məclisin deputatı Aydın Mirzəzadə qəzetimizə açıqlamasında deyib ki, Türkiyədə keçirilən prezident və parlament seçkiləri bütün dünyada olduğu kimi, Azərbaycanda da böyük maraq doğurub.

Türkiyə bizim üçün qardaş, dost ölkə olduğundan orada gedən proseslərə Azərbaycan heç vaxt biganə qala bilməz: "Düzdür, bu, Türkiyənin daxili işidir, türk cəmiyyəti öz seçimini edə bilir və istənilən seçimə Azərbaycan hörmətlə yanaşır. Seçkilər bir daha göstərdi ki, Türkiyə demokratik ölkədir. Qardaş ölkədə seçkilər ədalətli, şəffaf, demokratik şəraitdə keçir. Seçkilərə hər hansı müdaxilə mümkün deyil".

Deputat vurğulayıb ki, parlament seçkilərində hakim Ədalət və İnkişaf Partiyasının qalib gəlməsi cəmiyyətin bu partiyaya inamının, etibarının göstəricisidir. Növbəti 5 ildə parlamentdə AK Partiya təmsilçilərinin çoxluq təşkil etməsi Azərbaycan-Türkiyə münasibətlərinin bundan sonra da yüksələn xətlə gedəcəyini göstərir.

"Prezident seçkilərində birinci turda Rəcəb Tayyib Ərdoğanın daha çox səs toplaması onun Türkiyə cəmiyyətində aparıcı və böyük tərəfdarlar elektoratına malik olduğunu bir daha göstərir. Az səs fərqi Rəcəb Tayyib Ərdoğana ilk turda qalib gəlməsinə imkan vermədi. Bununla belə, hər iki namizəd mayın 28-də yenidən öz etimadlarını qazanmağa çalışacaqlar. İnanırıq ki, xalq öz seçimini düzgün edərək Türkiyənin bundan sonrakı yolunu layiq bildiyi namizədə verəcək", - deyə Aydın Mirzəzadə əlavə edib.

## Gərgin şəraitə baxmayaraq, Ərdoğanın liderliyi özünü göstərir

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu bildirib ki, Türkiyədə seçkilər olduqca demokratik keçib. Ərdoğan hakimiyyətinin əsas qələbəsi həm də bununla bağlıdır. Seçki kampaniyası tərəflərə tam sərbəst fəaliyyət imkanlarının tanınması baxımından olduqca uğurlu keçdi. Ölkədə seçkilər heç bir kənar müdaxilə olmadan, hər bir seçicinin müstəqil şəkildə öz səsini verməsi şəraitində baş tutdu. Bir sözlə, Türkiyə dünyaya demokratiya nümunəsi göstərdi, şəffaf, sərbəst seçki təcrübəsini bir daha nümayiş etdirdi.

Deputat bildirib ki, hazırkı beynəlxalq vəziyyət Türkiyədəki seçkini bu ölkənin daxili işi olmaqdan xeyli uzaqlaşdırıb: "Bu, geosiyasi bir seçki idi. Dünyanın güc mərkəzləri bu seçkini yaxından izləyirdilər, çünki gələcək dünyanın vəziyyəti Türkiyədəki seçkilərdən çox asılıdır. Ərdoğanın rəhbərlik etdiyi Türkiyə müasir dünyada çoxqütblülüyü dəstəkləyir, bu da qlobal təhlükəsizliyin ən vacib şərtlərindən biridir. Rəcəb Tayyib Ərdoğan Türkiyənin tam neytrallığını qoruyaraq yalnız ölkənin milli maraqlarına uyğun müstəqil xarici siyasət yeritməsini təmin etməyi bacardı. Bu da təbii ki, Qərbdə həzm olunmur, ona görə də Qərb Ərdoğana qarşı aşkar cəbhə açmışdı".

E.Mirbəşiroğlu deyib ki, Kamal Kılıçdaroğlunun mesajları onun qalib gələcəyi təqdirdə verəcəyi qərarların Türkiyənin maraqlarına heç də cavab verməyəcəyini aydın nümayiş etdirirdi. Birincisi, o, Türkiyənin parlamentli respublikaya qayıdış etməli olduğunu düşünür. Unudur ki, 2017-ci ildə Türkiyə xalqı öz seçimini edib. Bu, seçimini etmiş xalqın iradəsinə qarşı çıxmaqdır. İkincisi, parlamentli respublika dövründə maraqlı dairələr parlamentdə təmsil olunan ayrı-ayrı siyasi qüvvələr vasitəsilə ölkənin ümumi siyasətinə təsir etmək imkanlarına malik idilər. Rəcəb Tayyib Ərdoğan bunun qarşısını aldı. Onun təşəbbüsü ilə 2017-ci ildə referendum baş tutdu və Türkiyə prezidentli respublikaya keçid etdi. Bununla da Türkiyə tam müstəqil, öz maraqlarına uyğun xarici siyasət yeritmək, ümumiyyətlə, mövqe sərgiləmək imkanları qazandı.

Deputat bildirib ki, həmin dövrdə Qərb bunu süngü ilə qarşıladı, hətta Türkiyəni sanksiyaların tətbiqi ilə hədələdi: "Bu da bir daha göstərir ki, Qılıncdaroğlu Qərbin daha çox dəstəyini qazanmaq üçün belə addımlar atacağının anonsunu verirdi. O, Türkiyənin hazırkı beynəlxalq münasibətlər sistemində qoruyub saxladığı neytrallığı pozacağına işarə edərək bildirmişdi ki, prezident seçiləcəyi təqdirdə Rusiyaya Türkiyənin NATO ölkəsi olduğunu xatırladacaq. Bildiyimiz kimi, Rusiya-Qərb qarşıdurmasında Türkiyə neytral, əksər hallarda isə barışdırıcı mövqe tutur. Türkiyə Rusiyaya qarşı sanskiyalara qoşulmamaqla öz iqtisadiyyatını böyük zərərdən qorumuş, eyni zamanda konfrantasiyanı əhəmiyyətli dərəcədə zəiflətmişdi".

Onun sözlərinə görə, Türkiyənin mövqeyi bütövlükdə müasir gərgin beynəlxalq şəraitdə qlobal təhlükəsizliyə olduqca müsbət təsir göstərir. Kamal Kılıçdaroğlu isə bu konfiqurasiyanı köklü şəkildə dəyişəcəyinə işarə edir. Bu da həm Türkiyə, həm də qlobal proseslər üçün çox təhlükəlidir.

Deputat hesab edir ki, seçkilər gərgin mübarizə şəraitində keçməsinə baxmayaraq, onun təşkili demoktratik prinsiplərə uyğun idi. Seçkinin nəticələrinə görə, Ərdoğan Qılıncdaroğlunu qabaqlayıb. Ərdoğanın qələbə qazanma ehtimalı kifayət qədər yüksəkdir. Türkiyənin bundan sonra da müstəqil, öz maraqlarına xidmət edən, inkişaf dinamikası qalmaqda davam edəcək.

"Bu il Türkiyədə dağıdıcı zəlzələlər baş verdi. Təbii ki, bu da elektoral mövqeyə təsirini göstərdi. Zəlzələdən zərərçəkmiş bölgələrdən Diyarbəkir və Adanadan başqa, digərləri R.T.Ərdoğanı dəstəkləyiblər. Bu, həmin ərazilərdə hakimiyyət tərəfindən kifayət qədər dinamik tikinti və quruculuq işlərinin həyata keçirildiyinin təsiridir. Zəlzələdən zərərçəkmişlərə dövlətin, Rəcəb Tayyib Ərdoğanın qayğısı mövcuddur. Ərdoğanın həmin ərazilərlə bağlı verdiyi vədlər elektorat tərəfindən də dəstəklənir", - deyə Elşad Mirbəşiroğlu əlavə edib.

Parlamentdə Cümhur İttifaqının qələbə qazandığını xatırladan deputat Ədalət və İnkişaf Partiyasının əsas rəqibi olan Cümhuriyyət Xalq Partiyasını hardasa 100-ə yaxın millət vəkili ilə üstələdiyini qeyd edib. Bu, gələcəkdə Cümhur İttifaqının parlamentdə qərarları rahat qəbul etməsinə və fəaliyyət göstərməsinə imkan verəcək.

O hesab edir ki, mövcud beynəlxalq gərgin şəraitə və şərtlərə baxmayaraq, Ərdoğanın liderliyi özünü göstərir. Deputat düşünür ki, bu seçkilərdə Rəcəb Tayyib Ərdoğan qalib gələcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Müasir dünyanın ən qatı avantüristi öldümü?

## Corc Soros indiyədək bir çox "rəngli inqilablar"a dəstək verib

**Amerikalı treyder və valyuta alverçisi, onilliklər ərzində dünyada bir çox inqilabların əsas sponsoru, eyni zamanda bir neçə ölkənin iqtisadiyyatının çökməsində aparıcı rol oynamış Corc Soros 92 yaşında ölüb. Bu barədə ABŞ-nin "Politics For All Ireland" nəşri məlumat yayıb.**

Hələ 1999-cu ildə Soros ÇXR Baş Qərargahının yüksəkrütbəli məmurları tərəfindən hazırlanmış və Pekinin Qərbin hibrid hücumlarına asimmetrik döyüş cavabları üçün əsas təlimata çevrilmiş "Hədsiz müharibə" adlı sənəddə "maliyyə terrorçusu"nun əsas nümunəsi kimi göstərilir.

24 il əvvəl hazırlanmış sənəddə əminliklə bildirilir ki, yaxın gələcəkdə "maliyyə müharibəsi" termini müxtəlif növ rəsmi hərbi jarqon lüğətlərinə daxil ediləcək. Tarix kitabının bu bölməsində baş qəhrəman dövlət xadimi və ya hərbi strateq deyil, çox güman ki, Corc Soros olacaq. Terrorizmin tipik xüsusiyyətləri, o cümlədən transmilli, gizli, qaydalar olmadan həyata keçirilən və son dərəcə dağıdıcı olan tipik xüsusiyyətləri onu maliyyə terrorçusu adlandırmağa əsas verir.

## İblis hissiyyatına və intuisiyaya malik olan şəxs

Dyord Şvarts (Corc Soros) 1930-cu il avqustun 12-də Macarıstanın paytaxtı Budapeştdə yəhudi vəkil Tivadar Şvartsın ailəsində anadan olub. 17 yaşında ali təhsil almaq üçün Londona yollanıb, 1956-cı iıdə isə Nyu Yorka köçüb və orada beynəlxalq investisiya fondu yaradıb. Bir çox ölkələrdə hökumətlərin devrilməsində əli olub. Soros "rəngli inqilablar"ın yaradıcısı olub və əsas qazancını da bundan götürüb.

Şahidlərin fikrincə, iblis hissiyyatına və intuisiyaya malik olan Soros bunu öz humanitar fondları sistemi,



"Açıq cəmiyyətlər" adlanan qurumlar və QHT-lər vasitəsilə həyata keçirib. Onlarca ölkədə fəaliyyət göstərən bu qurumlar gənclərin beyninə "azadlıq, bərabərlik, qardaşlıq ideyaları" yerləşdiriblər.

O, 2001-ci ilin yanvarında Serbiyada "Buldozer inqilabı"nın maliyyələşdirilməsinə kömək edib. "The Los Angeles Times" qəzeti o zaman yazırdı ki, Soros öz fondları şəbəkəsi vasitəsilə prezident Slobodan Miloşeviçin dramatik şəkildə devrilməsində əsas rol oynayıb.

2003-cü ilin noyabrında "Globe and Mail" qəzeti yazıb ki, Gürcüstan prezidenti Eduard Şevardnadzenin devrilməsində "Soros izi" var. "Daily Caller" nəşrinin yazdığına görə, Soros həm də Ukraynada sabitliyin pozulmasında və onun Rusiya ilə sonrakı münaqişəsində əsas maliyyə oyunçusu olub.

"Soros Açıq Cəmiyyət Fondu" bir neçə ərəb ölkəsində sabitliyi pozan "Ərəb baharı" hərəkatlarında mühüm rol oynayıb. Məsələn, Tunis prezidenti Zeynalabdin Bin Əlinin devrilməsi ilə nəticələnən kortəbii iğtişaşları müdafiə edib.

Bu siyahıya Şərqi Avropada, Ermənistanda və bir sıra digər ölkələrdə baş vermiş "rəngli inqilablar"ı da əlavə etmək olar.

## O həm də iqtisadiyyatları çökdürürdü

Avantürist Corc Soros 16 sentyabr 1992-ci il tarixdə funt sterlinqin devalvasiyası ilə bir milyard dollar qazanıb və buna görə də o, "İngiltərə Bankını məhv edən adam" ləqəbini alıb.

1997-ci ildə Asiya-Sakit okean regionunun bir sıra ölkələrində - Malayziya, İndoneziya, Sinqapur və Filippində baş verən iqtisadi böhran zamanı Malayziyanın baş naziri Mahathir Məhəmməd Corc Sorosu Asiya ölkələrinin valyutalarına hücum etməkdə təqsirləndirib.

Bundan əlavə, 2007 və 2008-ci illərdə ABŞ-də milyonlarla adamın yoxsul vəziyyətinə düşdüyü ipoteka böhranı zamanı Soros təxminən 1 milyard dollar qazanıb.

Qeyd edək ki, politoloqlar əvvəllər də Sorosun mətbuat səhifələrində dəfələrlə "öldüyünə" diqqət çəkiblər. Ən çox rezonans doğuran hadisə isə 2013-cü ilin aprelində "Röyter" Agentliyinin onun hazırladığı nekroloqu təsadüfən dərc etməsidir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələrinin qardaş Türkiyəyə səfəri davam edir

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələrinin qardaş Türkiyəyə işgüzar səfəri çərçivəsində növbəti görüşlər keçirilib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti Türkiyənin Daxili İşlər Nazirliyinin Təhlükəsizlik və Fövqəladə Hallar Koordinasiya Mərkəzində Türkiyə Daxili İşlər Nazirliyi Vətəndaş Cəmiyyəti ilə Əlaqələr Baş İdarəsinin rəisi Əhməd Türköz və Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri, professor Aygün Əttar, Türkiyənin həmkarlar ittifaqı KAMU-SEN Konfederasiyası rəhbərinin müavini Talip Geylan, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) sədri Serkan Kayalar və digərləri ilə görüşüb.

Görüşlərdə Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olunub. Bildirilib ki, iki ölkənin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluq münasibətləri bu qardaşlığı daha da uğurlu gələcəyə aparacaq.

Vurğulanıb ki, Azərbaycan ilə Türkiyə arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə güclü qardaşlıq münasibətləri mövcuddur. Eyni yaxınlığın vətəndaş cəmiyyəti qurumları arasında da olduğu və bu prosesin davam etdiriləcəyi diqqətə çatdırılıb.

# REGİONLAR

## Mingəçevirdə "Heydər Əliyev İli" ilə bağlı tədbirlər davam edir

### Növbəti tədbirdə yeniyetmə və gənc güləşçilər güclərini sınamışlar



**Ölkəmizin hər yerində olduğu kimi, Mingəçevirdə də Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş silsilə tədbirlər davam edir. Belə tədbirlərdən biri də Mingəçevirdəki "Kür" Olimpiya Tədris İdman Mərkəzinin idman zalında keçirilmişdir.**

Şəhər bələdiyyəsinin maliyyə dəstəyi ilə baş tutan yarışa respublikamızın 10-a yaxın şəhər və rayonundan yunan-Roma güləşi üzrə 160-a yaxın idmançı iştirak etmişdir. Mingəçevirin iki komandası, Yevlax, Şəmkir, Goranboy, Qazax, Daşkəsən, Zəngilan, Balakən, Göyçay rayonlarının yeniyetmə və gənc idmançıları üçün hər cür lazımi şərait yaradılmışdır.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Azərbaycan Bələdiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Məhərrəm Xəlilov, Mingəçevir Bələdiyyəsinin sədri Ramiz Əliyev və bələdiyyə üzvləri, YAP Mingəçevir Şəhər Təşikilatının sədri Bəxtiyar Mustafayev, şəhər Gənclər və İdman İdarəsinin rəisi Kamal Nəcəfli, yunan-Roma güləşi üzrə respublikanın tanınmış idman mütəxəssisləri, hakimlər, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbir Ulu Öndərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır. Dövlət himni səsləndirildikdən sonra ŞİH-in başçısı İlham İsmayılov çıxış edərək iştirakçıları salamlamış, Ümummilli Liderin idmana və idmançılara göstərdiyi diqqətdən söhbət açmışdır. Sonra Məhərrəm Xəlilov təmsil etdiyi qurumun adından yarış iştirakçılarına uğurlar arzulamışdır.

12 çəki dərəcəsi üzrə gərgin mübarizə şəraitində keçən yarışda Mingəçevir komandası birinci, Şəmkir idmançıları ikinci, Göyçay idmançıları isə üçüncü yerə çıxmışlar. Fərdi çəki dərəcəsi üzrə yarışlarda qalib gələn idmançılar fəxri diplom və döş nişanı ilə təltif olunmuşlar. Qalib komandalara Azərbaycan Bələdiyyəsi İşləri Həmkarlar İttifaqı Respublika Komitəsinin fəxri fərmanları və pul mükafatları verilmişdir.

*Lazım QULİYEV, "Azərbaycan"*

## Gəncədə alman traktorları yığılacaq

**Azərbaycanın maşınqayırma sənayesinin flaqmanı olan, artıq 20 ilə yaxındır ki, ölkəni avtomobil və kənd təsərrüfatı texnikaları ilə təmin edən Gəncə Avtomobil Zavodu İstehsalat Birliyində növbəti yeni səhifə açılır.**



Müəssisə həm Avropada, həm də dünyanın kənd təsərrüfatı bazarında öz keyfiyyəti və davamlılığı, yüksək məhsuldarlıq xüsusiyyətləri ilə seçilən traktorların istehsalçısı olan İtaliyanın SDF qrupu ilə əməkdaşlıq müqaviləsi bağlayıb.

İlkin mərhələdə alman modelləri olan DEUTZ-FAHR 4100 W, 6205 g və 115 G AGROFARM modellərinin Azərbaycanda yığılması üçün razılıq əldə edilib.

Müqavilənin şərtlərinə görə, Gəncə avtomobil zavodunun İtaliyanın SDF qrupu ilə ikitərəfli əməkdaşlıq çərçivəsində yığılacaq traktorların model sırasını gələcəkdə genişləndirməyi nəzərdə tutur.

Yeni model traktorların təqdimat mərasimində Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi Müşahidə Şurasının sədri Xanlar Fətiyev, İtaliyanın SDF qrupunun beynəlxalq regional direktoru Umberto Miceli, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və digər rəsmi qonaqlar iştirak edib. Müqaviləni Gəncə avtomovil zavodu İB-nin direktoru Bağban Nəbiyev və İtaliyanın SDF qrupunun beynəlxalq regional direktoru Umberto Miceli inzalayıblar.

İstehsalat birliyinin servis və marketinq şöbəsinin apardığı araşdırmalara görə, keyfiyyəti ilə seçilən alman traktorlarına Azərbaycan bazarında tələbatın olduğunu nəzərə alaraq, Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi il ərzində ilkin mərhələdə 300-ə yaxın traktorun yığılmasını planlaşdırır.

Məlumat üçün bildirək ki, 2004-cü ildən fəaliyyətə başlayan Gəncə Avtomobil Zavodunda 2007-ci ildən bəri 15000-ə yaxın müxtəlif modeldə və modifikasiyada traktorlar və digər kənd təsərrüfatı texnikaları yığılaraq təhvil verilib. Bu müddətdə zavodda 5000-dən yuxarı müxtəlif marka və modeldə yük avtomobilləri yığılıb.

## Sumqayıtda yol infrastrukturu yenilənir

**Sumqayıt şəhərində yol-nəqliyyat infrastrukturunun yenilənməsi istiqamətində layihələr həyata keçirilir.**

Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən hazırlanmış xüsusi proqram çərçivəsində prospekt və küçələr, eləcə də təmirə ehtiyacı olan mikrorayon və məhəllədaxili yollar mərhələli şəkildə təmir edilir.

Şəhərin Koroğlu prospekti nəqliyyatın sıx olduğu ərazilərindən sayılır. Sülh və Babək küçələrinin kəsişməsindən başlayan prospektdə xeyli sayda avtomobil təmiri sexləri yerləşir. Yəni bu əraziyə həm də təmir üçün xeyli maşın gəlir. Son zamanlar prospektin bəzi hissələrində asfalt dağılmış, xeyli sayda çala əmələ gəlmişdi. Hərəkət xətləri silinərək görünməz vəziyyətdə idi ki, bu da dəfələrlə qəzalara səbəb olmuşdu.

Hazırda prospektin hər iki hərəkət zolağı genişləndirilərək təmir edilib. Bir neçə hissədə piyada zolaqları yaradılıb və işıqlandırıcı nişanlar qoyulub. Həmçinin ətrafdakı emalatxanaların fasadları dəyişdirilib. Prospektin başlanğıc və sonunda müasir işıqfor quraşdırılıb.

*Akif ƏLİYEV, "Azərbaycan"*

## Astarada növbəti tibbi aksiya keçirilmişdir

**Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin təşəbbüsü və rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illik yubileyi münasibətilə Astarada növbəti xeyriyyə aksiyası keçirilmişdir.**



Qeyd edək ki, akademik Zərifə xanım Əliyevanın ad günü ərəfəsində keçirilən tibbi aksiyalar ənənəvi hal alıb. Builki tibbi aksiya isə həm də Ulu Öndər Heydər Əliyevin və Zərifə xanım Əliyevanın 100 illik yubileylərinə təsadüf etmişdir.

Aksiyanın gedişində akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş oftalmoloq, tibb üzrə elmlər doktoru, professor Elmar Qasımov səyyar klinikada olmuş, müayinələrin gedişi ilə maraqlanmış, tibb işçilərinə tövsiyə və tapşırıqlarını vermişdir.

Müayinəyə gələn vətəndaşlar göstərilən xidmətdən razılıqlarını bildirmiş, belə xeyriyyə aksiyalarının keçirilməsinə görə əməyi keçən hər kəsə təşəkkür etmişlər.

Aksiya çərçivəsində mərkəzin səyyar klinikasında 178 nəfər şəhid və aztəminatlı ailə üzvləri, qazilər, müharibə iştirakçıları müayinə edilmiş, ehtiyacı olanlara müalicələr təyin olunmuşdur.

*S.MƏMMƏDOV, Astara*

## Daşkəsənə 30 santimetr qar yağıb

**Mayın 14-də axşam saatlarından başlayaraq Daşkəsən rayonunun Qabaqtəpə, Astaf, Əmirvar, Gurbulaq və Xoşbulaq kəndlərinə qar yağıb.**

AZƏRTAC xəbər verir ki, qarın qalınlığı kəndlərdə 5-10 santimetr, yüksək dağ ərazilərində 15-30 santimetrə çatıb. Bəzi kəndlərdə vətəndaşların təsərrüfatlarına və fərdi yaşayış evlərinə ziyan dəyib.

Qarın yağması elektrikin, suyun, qazın verilişində və rayon mərkəzi ilə kəndlər arasında yollarda hərəkətə müəyyən problemlər yaratsa da, qabaqlayıcı tədbirlər görülüb.

## Sünbüllər dənə dolur

### "Salyan Aqro İstehsalat və Sənaye Kompleksi" MMC 200 hektar ərzaq buğdası sahəsindən yüksək məhsul gözləyir

**Baş aqronom Ağaverdi Əmənovla buğda əkilmiş sahəyə gəlirik. İlk baxışdan bitkilərin boyu o qədər də ürəkaçan görünmür. Elə ona görə də baş aqronoma birinci sualımız bu barədə olur.**

- Aşağı sinif dərsliyindən "Bapbalaca boyu var, dam dolusu toyu var" tapmacasını uşaqlıq illərində hər birimiz oxumuşuq. Cavabı lampa olan həmin tapmacanı "Alekseiç" buğda sortuna da aid etmək olar. Necə deyərlər, boyunun kiçikliyinə baxmayın, görün əməli nə boydadır. Məhsuldarlığı digər taxıl sortlarından xeyli çoxdur. Özü də ərzaqlıqdır. Tərkibində yapışqanlılığı yüksək olduğundan unundan çörək və başqa un məmulatları hazırlamaq olur. İdxaldan asılılığı azaltmaq üçün son vaxtlar bu cür taxıl sortlarının əkilib-yetişdirilməsinə diqqət artırılmışdır. Konkret rəqəmlərə gəldikdə, keçən ilin payızında müəssisəmiz 700 hektarda taxıl əkini aparmışdır. Onun 250 hektarı arpa, 450 hektarı buğdadır. Əkdiyimiz buğda sahəsinin 200 hektarı həmin bu "Alekseiç" növündən olan ərzaqlıq buğdadır.

Baş aqronom əyilib sünbülləri göstərərək: "Maşallah olsun! Görürsünüz, nə boydadır? Hələ mum dövrünü başa vurub, buğda dənələri təzə-təzə başlayıb bərkiməyə. İnşallah, hər hektardan 45-50 ton məhsul gözləyirik", - deyir. Sonra baxışlarını ətrafa gəzdirərək sözünə davam edir:

- Bu gördüyünüz ərazilər sovet dövründə 1 nömrəli sovxoza məxsus olub. Əkinə tam şəkildə yararsız hesab edilsə də, ancaq bir hissəsindən istifadə olunurdu. Əkilən yerlərin özü də duzlu, qamışlı, həndir-hamar olduğundan cüzi məhsul verirdi. Eşitdiyimə görə, heç bir briqadir öz xoşu ilə bu yerlərə yaxın durmaq, yəni burada əkin aparmaq istəmirmiş. Lakin siz də yaxşı bilirsiniz ki, o dövrün tələbi başqa idi. Əkməlisən, qurtardı getdi. Yoxsa işinlə vidalaşmalı idin. Sonrasında görüm harada sənə iş verərdilər. Bundan sonra ailə-uşağın necə olacaqdı, onu bir Allah bilirdi. Nə isə. Müəssisəmiz bu torpaqları götürdükdən sonra ərazidə əsaslı iş apardıq. Kollektor-drenaj şəbəkəsini, su kanallarını təmizlədik. Meliorasiya, hamarlama işləri gördük. Düzdür, çox xərc çəkildi, ancaq bunsuz olmazdı. Əks halda, əvvəlki illərdə olduğu kimi, hər hektardan 5-10 sentner məhsul götürməklə kifayətlənmək məcburiyyəti qarşısında qalardıq. Bir də ki "su bolluqdur" sözlərini əbəs yerə deməyiblər. Bütün canlılar kimi, bitkilərin də varlığı su ilə bağlıdır. Bunu nəzərə alıb suvarma sistemini yenidən qurduq.



Ağaverdi Əmənov əli ilə bizdən 150 metr kənarda sahənin ortası ilə uzanan qurğunu göstərərək söhbətinə davam edir:

- O çiləyici qurğunu deyirəm. Adına "pivod" deyirlər. Çox yaxşı avadanlıqdır. Kanaldan götürülən bulanıq Kür suyu anbarda duruldularaq nasoslar vasitəsilə "pivod"a ötürülür. O da süni yağış formasında sahələrə su çiləyir. Özü də hərəkət edə-edə. Onunla sahənin hər tərəfi relyefindən, həndir-hamarlığından asılı olmayaraq bərabər qaydada su içmiş olur. Heç bir su itkisinə, göllənməyə, selləməyə yol verilmir. Adi qaydada suvarma zamanı hər hektara 3 min, 3 min 500 kubmetr su sərf olunursa, "pivod"la hər hektara vur-tut 600 kubmetr su işlədilir. Bu qurğu eyni zamanda operator vasitəsilə proqramlaşdırılaraq fəaliyyət göstərir.

Sahə üstündə apardığımız söhbət zamanı o da məlum olur ki, əkin vaxtı hər hektara toxumla birlikdə 150 kiloqram ammofos gübrəsi verilib. Mart ayının əvvəllərində - torpaq oyananda hər hektara 150 kiloqram azot, aprelin əvvəllərində isə yenə bir o qədər karbamid gübrəsi, sonrakı mərhələdə isə alaq otlarına qarşı herbisid səpilmişdir.

Sahədən geri qayıdarkən paslanmayan dəmirdən hazırlanmış iri çənləri görürük. Taxılçılığın inkişaf etdiyi Cəlilabad rayonu ərazisində də bir neçə yerdə belə çənlərin quraşdırılmasını və onun ərzaq təhlükəsizliyində nə kimi rol oynadığını bilirik. Bu anbarlarda taxıl istənilən müddət ərzində keyfiyyətli şəkildə qoruna bilir. Fövqəladə vəziyyət yarandığı halda ondan istifadə edilir. Hər birinin 10 min ton tutumu olan 4 belə elevator-anbarın quraşdırılması, çox güman ki, ərzaqlıq buğda istehsalının artırılmasına hesablanmışdır.

"Salyan Aqro İstehsalat və Sənaye Kompleksi" MMC təkcə taxılçılıqla deyil, digər kənd təsərrüfatı bitkiləri - pambıq, qarğıdalı, günəbaxan, şəkər çuğunduru və s. əkilib-becərilməsi, habelə emalı ilə də məşğuldur. Bu isə ölkədə kənd təsərrüfatının, sahibkarlığın inkişafına verilən dəstəyin nəticəsidir.

*Seyran CAVADOV, "Azərbaycan"*

## Masallıda 51 min nəfərin istifadə etdiyi yol əsaslı təmir olunur



**Respublika əhəmiyyətli Masallı dəmir yolu stansiyası avtomobil yolunun 4-cü km-dən ayrılan Ləngan, Əhmədli, Təklə-Viləş, Təklə-Mollahəsənli, Həsənli-Köçəkli, Bala-Təklə-Şərəfə, Qədirli-Xallıcalı, Hüseynhacılı-Öncəqala avtomobil yollarının əsaslı şəkildə yenidən qurulması davam edir.**

Ümumi uzunluğu 38 km olan avtomobil yollarının eni 10 metrə qədər genişləndirilir.

Uzun müddət əsaslı şəkildə təmir olunmayan yolların yenidən qurulmasında məqsəd yolboyu 27 yaşayış məntəqəsində yaşayan 51 min nəfər əhalinin gediş-gəlişini təmin etmək, rayon mərkəzinə, həmçinin Bakı-Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yoluna rahat çıxış əldə olunmaqla yük və sərnişin daşımasını asanlaşdırmaqdır.

Sözügedən yollarda işlər texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək sürətlə aparılır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən tikinti ərazilərinə kifayət qədər canlı qüvvə və texnika cəlb olunmaqla aparılan yenidənqurma işləri çərçivəsində əsasən torpaq əsaslı və çınqıl örtüklü olan yollar 4-cü texniki dərəcəyə uyğun yenidən qurulur.

Layihə üzrə yolun Ləngan (1,4 km), Əhmədli (1,4 km) hissələri üzrə torpaq işləri və yol əsasının alt layının vurulması işləri icra olunub. Təklə-Mollahəsənli (2 km) hissəsində isə torpaq işləri və yol əsasının alt layının tikintisi bitib. Yolun Həsənli-Köçəkli (6,9 km) hissəsində hazırda torpaq işləri, suötürücülərin inşası və yol əsasının tikintisi işləri aparılır.

Layihənin Qədirli-Xallıcalı (3 km) hissəsində torpaq işləri, yol əsasının alt layının tikintisi yekunlaşıb, suötürücülərin inşası isə son mərhələdə olmaqla davam edir.

Yolun Təklə-Viləş (9 km) hissəsində hazırda yol əsasının alt layı inşa olunur. Qeyd edək ki, layihənin bu hissəsi III və IV texniki dərəcəyə uyğun olaraq tikilir. Hüseynhacılı-Öncəqala (9 km) hissəsində ardıcıllığa uyğun olaraq torpaq işləri, suötürücü boruların quraşdırılması, yol əsasının tikintisi və asfaltlanma işləri yekunlaşıb. Sözügedən hissədə müxtəlif ölçülü 13 dəmir və 13 dəmir-beton suötürücü boru tikilib.

Aparılan işlər çərçivəsində layihənin Təklə-Viləş hissəsində Viləş, Taxta və Ağqobu çayları üzərində yerləşən mövcud avtomobil körpülərinin cari təmiri də icra olunacaq.





# Mədəniyyət





● Azərbaycan kinosu - 125



**Azərbaycan mədəniyyətinin zəngin ədəbi-bədii nümunələri, bəşəri dəyərlər daşıyan əsərləri sənət xəzinəmizə töhfə verməklə tarixdə özünəməxsus iz buraxıb. Milli musiqimiz, rəssamlıq, teatr və kinematoqrafiya illər boyu bəşəri ideyaları tərənnüm edib. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində keçirilən forumda Azərbaycan kinosunun problemləri, qarşıya çıxan çətinliklər, günümüzün reallıqları geniş şəkildə müzakirə edildi. Mövcud çətinliklərə və problemlərə rəğmən Azərbaycan kinosu bu gün yaşayır. Dünya və tarix daim yüksələn inkişaf xətti ilə irəliləmədiyi kimi, kino sferası, o cümlədən Azərbaycan kinosunun da həyat yolu hər zaman hamının maraqlarını təmin edən bir yol olmamışdır. Amma nə yaxşı ki, sənətə, bədii əməyə və onun daşıyıcılarına qiymət verən insanlar və dövlətimiz var...**

## Milli kinomuzun inkişafına çalışmalıyıq

Tarixə nəzər salsaq, milli kinematoqrafiyanın keçib gəldiyi yolun heç də hamar olmadığını görürük. Ötən əsrin ikinci yarısında baş verən proseslər XX əsrdə müstəqil Azərbaycan kinematoqrafiyasının varolma əsaslarını müəyyənləşdirmişdi. Belə ki, Azərbaycanda kinematoqrafiyanın vəziyyəti II Dünya müharibəsindən sonra müəyyən durğunluq dövrünü yaşadı. Mövzuların, hətta kadrların Moskvadan təyin olunması milli kinomuzun inkişafına ciddi əngəllər törədirdi. Bakı Kinostudiyasının qonşu respublikalardan birinin tabeliyinə verilərək filial kimi fəaliyyət göstərməsi haqqında Moskvada məxfi şəkildə qərar hazırlanırdı. Azərbaycanın bədnam qonşularının Sov.İKP Mərkəzi Komitəsində və Siyasi Bürodakı yüksəkvəzifəli təmsilçilərinin və onların havadarlarının lobbiçiliyi sayəsində bu işin reallaşdırılması üçün güclü səylər göstərilirdi. Azərbaycanın siyasi rəhbərliyində Heydər Əliyevin yüksək vəzifə tutması bu təhlükənin qarşısını aldı. Belə ki, Mehdi Hüseynzadənin bəraət alması və Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsində təşəbbüs Ulu Öndər Heydər Əliyevə məxsusdur. Məhz onun səyləri ilə arxiv materialları araşdırıldı və Moskvada aidiyyəti orqanlara tutarlı faktlarla Mehdi Hüseynzadənin qəhrəmanlığı sübut olundu. İ.Qasımov və H.Seyidbəylinin müəllifi olduğu "Uzaq sahillərdə" romanı da onun təşəbbüsü ilə yazıldı. Daha sonra Tofiq Tağızadənin quruluşçu-rejissorluğu ilə eyniadlı filmin çəkilişləri Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə baş tutdu. İstehsalı Bakı Kinostudiyasında başlayan "Uzaq sahillərdə" filmi 1958-ci ildə uğurla tamamlandı. Bundan sonra Bakı Kinostudiyası "Azərbaycanfilm" kimi fəaliyyətini davam etdirdi. Bununla da "Azərbaycanfilm"in qonşu respublikalardan birinin filialı olmaq faktının qarşısı alındı!

Milli kino tarixində intibah mərhələsi kimi yadda qalan bir neçə uğurlu filmin ərsəyə gəlməsi də məhz Ulu Öndərin məharətlə irəli sürdüyü təşəbbüs və qərarlarla bağlıdır. Azərbaycan xalqının maddi-mədəni irsinə, tarixinə sahib çıxması, müstəqil bir xalq kimi milli-mədəni mühitdə yaşayıb inkişaf etməsi üçün Ulu Öndər əvəzolunmaz xidmətlər göstərmişdir. Böyük rəhbərin uzaq perspektivə hədəflənmiş, əsasında milli inkişaf konsepsiyası duran fəaliyyətinin Azərbaycanın XX əsr tarixinin bütün sahələrində - siyasət, iqtisadiyyat, mədəniyyət, elm, ideologiyada bariz nümunələrlə zəngin olduğunu bu gün daha parlaq şəkildə görürük.

Ulu Öndərin miras qoyduğu siyasi, mədəni kursu layiqincə davam etdirən Prezident İlham Əliyev qloballaşan dünyanın çağırışlarına Vətən sevgisinə dayanan qürurverici fəaliyyəti və Azərbaycan dövlətçiliyini yeni inkişaf səviyyəsinə qaldırması ilə cavab verdi. Azərbaycançılıq, müasirlik, tolerantlıq, multikulturalizm kimi dəyərlərimizi qorumaq və gələcək nəsillərə ötürməyin əhəmiyyətini zaman-zaman xatırladan dövlət başçısı, əslində, xalqı bu dəyərlər ətrafında birləşdirməyə və həmin dəyərlərin cəmiyyətin bütün fəaliyyət və yaradıcılıq sahələrində əsas meyar kimi tətbiq edilməsinə nail oldu.

Müasir, "sərhədsiz" dünyada müxtəlif "ideyalar" bir-birini tez-tez əvəz edir, çeşidli resurslar vasitəsilə müstəqilliyinin bəhrəsini dadmağa imkan tapmamış ölkələrə asanlıqla daxil olur. Məsələn, natamamlıq psixologiyası, öz xalğının əxlaqi keyfiyyətlərinə, tarixinə, ictimai şüurunun sınaqdan çıxmış formalarına yuxarıdan aşağı baxmaq kimi tendensiyalara köklənmiş mesajlar maraqlı güclər tərəfindən dəstəklənməkdədir. İdeoloji-mənəvi-əxlaqi sferada boşluq yaranan kimi onun yerini mürtəce, separatçı, aqressiv, humanizmdən uzaq müxtəlif növ meyillər, hətta dini-siyasi sapmalar doldurmağa başlayır. Heç şübhəsiz ki, bu ideyaların sürətlə məruz qaldığı sahələrdən biri də kinematoqrafiyadır.

Bu günlərdə keçirilən kinoforum Azərbaycan kinosunun mövcud vəziyyətini şəffaf şəkildə müzakirəyə çıxardı. Bu tədbirin gedişatı göstərdi ki, onun təşkilatçısı olan Mədəniyyət Nazirliyi üçün bu sferada qapalı saxlanacaq kiçik bir detal belə yoxdur. Bu isə çox vacib idi. Forum çərçivəsində dörd paneldə qoyulan mövzular geniş və əhatəli şəkildə imkan verdi ki, çıxışçılar və müzakirəyə qatılanlar sərbəst şəkildə diskussiya aparsınlar, fikir bildirsinlər. Müzakirələr çox aydın şəkildə Azərbaycan kino sənayesinin təxirəsalınmaz həllini gözləyən istiqamətlərini müəyyənləşdirdi. Əsas ana xətti isə bunlar oldu: mədəniyyətimizin ideoloji əsasları olan azərbaycançılıq, tolerantlıq, multikulturalizm, maddi-mədəni irsimizə sadiqlik!

Azərbaycan kinosu yalnız daxili lokal məkanda fəaliyyət göstərə bilməz. Kinematoqrafiyanın vacib cəhətlərindən biri də sərhədləri aşıb mədəni-kulturoloji ixrac potensialına malik olmasıdır. Düşünürəm ki, kinematoqrafiyamız "yumşaq güc" olmaq potensialına malikdir və yaxın perspektivdə yerləşdiyimiz coğrafiyada mədəni-əxlaqi dəyərlərimizi tanıtmağa və sevdirməyə nail olacaqdır. Bu prosesi uğurla tətbiq etmək üçün yüksək professionallıq, savad, müasir dünya kinosunda gedən proseslərdən xəbərdar olmaq, ən əsası, öz xalqının tarixini, mədəniyyətini bilən və sevən peşəkarlar tələb olunur. Özfəaliyyət səviyyəsində, qeyri-professional yanaşma bu prosesi iflasa uğrada bilər. Sadaladığımız mənəvi-əxlaqi keyfiyyətlərin təbliği xalqımıza rəğbət formalaşdırması üçün vacib şərtlərdən biridir. Beynəlxalq kinofestivallarda və film fondlarında iştirak etməklə bu prosesi beynəlmiləşdirmiş oluruq.

Kinoforumda səslənən fikirlərin təhlili "PİTÇİNQ" (layihələrin təqdimatı) prosesinin kinomuz üçün nə qədər vacib olduğunu diqqət mərkəzinə gətirir.

Son illər Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyində Ekspert Şurası, Bədii Şura və digər müxtəlif adlarla psevdo-pitçinq kimi müsabiqələr keçirilmişdir. "PİTÇİNQ" isə dəqiq format və reqlament tələb edir.

Kinoforum problemlərin həlli yollarını axtarmaq üçün fikirlərin, mövqelərin müzakirəsi, dərdlərin bölüşülməsi istiqamətində irəliyə doğru atılan bir addım oldu. Bu mənada dövlətimizin mədəniyyət siyasətini idarə edən şəxslər və strukturlar milli kino sənayesinin bir çox məsələlərindən agah oldular və sektorun əsas iştirakçılarının potensialına yenidən qiymət vermək imkanı əldə etdilər.

Son 20 ildə keçmiş sovet respublikalarındakı kino və Azərbaycandakı kino sferasını müqayisə edəndə respublikamız üçün ürəkaçan məqamların az olduğunu görürük. Bu kino sənayesinin qurulması üçün təxirəsalınmaz istiqamətlərdə, daha dəqiq desək, struktur formalaşmasında daha aydın görünür. Məsələn, Beynəlxalq Kino fondlarında müştərək layihələrin təmsil olunmaması, EUROIMAGE üzvlüyünə hələ də qəbul olunmamağımız, Azərbaycanda beynəlxalq səviyyəli (FIAPF-da qeydiyyatdan keçmiş) film festivallarının olmaması, kino yayımında və dublyajda problemlərin mövcudluğu, prodüser və distribüter institutlarının beynəlxalq səviyyədə zəif təmsil olunması qonşu ölkələrlə müqayisədə kinomuzun geri qalmasını aşkara çıxarır.

Məhz buna görə gecikmədən kino sektorunun inkişafının yol xəritəsi hazırlanaraq Kino Agentliyinin icrasına təqdim olunmalıdır. Kino Agentliyi mütləq peşəkar, ali savadlı kadrlardan təşkil edilməlidir. Fikrimizcə, Azərbaycan kino tarixində müstəsna rol oynamış "Azərbaycanfilm" Kino Mərkəzi kimi fəaliyyət göstərməli, çəkiliş pavilyonları müasir kino sənayesinin tələblərinə uyğun yenidən qurulub istifadəyə verilməli, müxtəlif yaradıcılıq birliklərinin fəaliyyətini bu mərkəzdə cəmləşdirməklə rentabelli bir təşkilata çevrilməlidir.

Dövlət kino sferasına ilkin mərhələdə kino sənayesinin qurulması üçün müəyyən maliyyə vəsaiti ayrılmalı və bu proses çox ciddi nəzarətdə saxlanılmalıdır. Dövlətin özəl sektora müsabiqələr, tenderlər vasitəsilə sifarişlər verməsi praktikasını reallaşdırmağın nə qədər vacib olması artıq mübahisə doğurmamalıdır.

Kino sektorunda müəlliflər heyətində mütəxəssis problemi olmasa da, köməkçi sahələrdə (I asistent, qrim rəssamı, geyim üzrə rəssam, rəssam-arxitektor, pirotexnik, kaskadyorlar) böyük çatışmazlıqlar vardır. Bu gün istehsalata eyni zamanda 10 tammetrajlı film buraxılsa, bu daha da kəskin şəkildə özünü göstərəcək. Bu isə kino sənayesinin vacib tələblərindəndir.

Məhz bu baxımdan Mədəniyyət və İncəsənət Universitenin nəzdində (Kino Agentliyinin tabeliyində də ola bilər) daha geniş imtiyazlara malik Ali Kino İnstitutunun yaradılması da aktual görünür.

Həyatı və insan yaşayışını maraqlı edən onu bezdiricilik sindromundan xilas edən müxtəlifликdir. Zövqlərin, tələbatın, istəklərin müxtəlifliyi, bu rəngarəngliyi tanımaq, öyrənmək insana həyatı sevdirir. Müasir Azərbaycan kinosu da müxtəlif janr və istiqamətlər üzrə həyatımızın çeşidli tərəflərini maraqlı hekayələrlə bədii-vizual əsərlər halına gətirərək, tariximizin bir hissəsinə çevrilməkdədir. Bu gün tamaşaçılar Azərbaycan kinosunu seyr edib qürur hissləri ilə yaşamaq istəyirlər...

***Şamil ƏLİYEV,***
***kinorejissor və ssenarist***

● Unudulmazlar

## Sənətin zirvəsinə yüksələn aktyor

**Ölümü öz içində öldürənlər qəhrəman ola bilir, əbədiyaşarlıq qazanırlar. O, ölümdən qorxub geri çəkilmədi, əksinə, ölümün üstünə yeriyənlərdən oldu. Məğrur, qürurlu idi. Şux qaməti, gözəl baxışları, bənzərsiz səsi vari idi. Bəlkə xəstəliyi də "qismət"inə düşən pay kimi qəbul etdiyindən onunla mübarizə aparmadı. Sənətin, şöhrətin zirvəsini fəth edənlərdən oldu. Bir aktyor hansı nailiyyətləri əldə edib, uğura imza ata bilərdisə, o da bunları bacarmışdı. Fəxri adlar, mükafatlar, tamaşaçı sevgisi, alqışlar. Bir sözlə, aktyor şöhrətinin zirvəsini fəth edənlərdən oldu.**





Güclü hafizə, fövqəladə istedaddan başqa, həm də Allah ona güclü instinkt vermişdi. Amansız xəstəlik yaxasından yapışanda, xərçəngə yoluxanda da hiss etmişdi ki, Tanrı ona verdiyini alacaq. Ona görə də vaxtında geri çəkilməyi bacardı. Ölümün üstünə mərdi-mərdanə getməyi bacardı. Öz guşəsinə çəkilib qədərini gözlədi. Namərd xəstəlik ilk növbədə onu ən güclü, ən həssas yerindən "vurdu". Səsini əlindən aldı... O, yaxşı bilirdi ki, səhnədə, kinoda yaratdığı obrazlar onu gələcəyə, minillərin yaddaşına apracaq... Sanki tez gedəcəyini özü əvvəlcədən bilib böyük obrazlar qalereyası yaratdı. Belə deyək ki, əsl sənətkar kimi üzərinə düşən işləri layiqincə gördü.

Bəlkə də onu sevənlərin yaddaşında "aciz", "zəif" qalmasın deyə, səhnəmizin Əmir Teymuru, Ağa Məhəmməd Şah Qacarı xəstəliyin "sorağı"nı alan kimi bir daha görünmədi. Əbədi olaraq ürəklərə, yaddaşlara köçdü. Xatirələrdə yaşadı.

İlk dəfə onu 1978-ci ildə "Atayevlər ailəsi"ndə görmüşdüm. Tez-tez alman filosofu Kantdan iqtibas gətirməyi sevən, Lətafəti yoldan çıxarmağı bacaran, şorgöz polis rəisi Şahsuvarov kimi adı yaddaşımıza yazılmışdı.

Bu böyük sənətkar yüzlərlə obraza səhnə həyatı verərək mədəniyyət tariximizdə bənzərsiz xidmət göstərmişdi. Söhbət respublikanın Xalq artisti, görkəmli teatr və kino aktyoru, lirik-psixoloji üslublu aktyorluq məktəbinin qabaqcıl sənətkarlarından biri, fəlsəfi-dramatik və faciə rollarının mahir ifaçısı, "Teatr xadimi" qızıl medalını almış, "Qızıl Dərviş", Cəfər Cabbarlı, "Aktrisa" filminə görə "Ən yaxşı kişi rolunun ifası" nominasiyasında "Qızıl Pəri" mükafatını almış Fuad Poladovdan gedir.

1948-ci il mayın 24-də Bakıda doğulan aktyor 132 saylı şəhər orta məktəbini bitirib. Uşaqlıqdan aktyor sənətinə meyil salan səhnə ustası Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında Ədil İsgəndərovun aktyorluq studiyasını bitirib. 1967-1972-ci illərdə isə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsində təhsil alıb.

Sənətə 1966-cı ildə "İstintaq davam edir" filmində Səlim rolu ilə gələn aktyor sənət müəllimi Tofiq Kazımovun dəvəti ilə tələbə ikən İlyas Əfəndiyevin Akademik Milli Dram Teatrında hazırlanan "Məhv olmuş gündəliklər" pyesinin tamaşasında Savalan rolunu oynayıb. 1969-cu il noyabrın 29-da göstərilən tamaşadan sonra uğurlu səhnə performansına görə teatrın aktyor truppasına qəbul edilib. Həmin vaxtdan 1989-cu ilə qədər Akademik Milli Dram Teatrının truppasında çalışan görkəmli səhnə ustası "Fridrix Şillerin "Məkr və məhəbbət" əsərində Ferdinandı, Nazim Hikmətin "Məhəbbət əfsanəsi"ində Fərhadı, Məmməd Səid Ordubadinin "Qılınc və qələm"ində Nizamini, Maksim Qorkinin "Həyatın dibində"sində Baronu, Maqsud İbrahimbəyovun "Kərgədan buynuzu"nda Raufu, Nəbi Xəzrinin "Mirzə Şəfi"sində Mirzə Şəfini, İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı", "Məhv olmuş gündəliklər", "Qəribə oğlan", "Büllur sarayda", "Boy çiçəyi" və "Şeyx Xiyabani" əsərlərində Rəhman, Valeh, Savalan, Qədim, Mübarək, Həsənzadə və onlarca digər obrazlarına səhnə həyatı verib.

Fuad Poladovu tanıyanlar yaxşı bilirlər ki, o, yalnız fitri istedadı, bənzərsiz ifaçılıq məharəti ilə deyil, həm də səbri, sözübütövlüyü, ciddiliyi, kişiyə xas olan bütün müsbət kefiyyəti ilə fərqlənən bir şəxsiyyət olub. Aktyor haqsızlığa qarşı barışmaz, üsyankar mövqeyi ilə də həmişə fərqlənib. Elə illərlə can qoyub şöhrət qazandığı doğma teatrından ayrılması da onun haqsızlığa qarşı bir etirazı idi. Teatrda baş verən daxili çəkişmələrə üsyanı idi…

1989-cu ildən Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında fəaliyyətə başlayan aktyor ömrünün sonuna kimi bu sənət ocağında çalışaraq onlarla obraza səhnə həyatı verib.

Fuad Poladov Azərbaycan mədəniyyət tarixinə öz adını həm də görkəmli kinoaktyoru kimi yazan sənətkarlardandır. Filmoqrafiyada bu böyük sənətkarın rol aldığı 45 filmin adı keçir. Onun rol aldığı filmlərdə, yaratdığı obrazlarda bu böyük sənətkarın xarakterini görməmək mümkün deyil. "Güləlnmə təxirə salınır" filmində yaratdığı "Xan" obrazı aktyorun xarakterinin bütün cizgilərini nümayiş etdirdi.

Fuad Poladov may ayında dünyaya göz açmışdı. Elə güllü-çiçəkli bir yaz günündə uzun sürən xəstəlikdən sonra 4 may 2018-ci ildə əzizlərinə əbədi olaraq vida etdi. Sevdiklərinin ürəyində əbədi məskən salan Xalq artistinin məzarı "Qurd qapısı" qəbiristanlığındadır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

● Tarixə bir nəzər

**... Biz öz varlığımızı yalnız mədəniyyət ilə sübut edə bilərik, çünki mədəniyyət və incəsənət ən böyük informasiya mənbəyidir".**
*Üzeyir bəy Hacıbəyli*

## Azərbaycan incəsənəti dekadası

**Qədim tarixə malik Azərbaycan xalqının mədəniyyəti və incəsənəti Qafqazda, Orta Asiyada və Yaxin Şərq ölkələrində böyük şöhrət qazanmışdı.**





27 mart 1938-ci ildə Moskvaya yola düşən 700 nəfərlik böyük incəsənət qrupu Azərbaycan xalqının sayılıb-seçilən musiqi mədəniyyətinin nümayəndələri idi. Onların arasında xalq aşıqları, gözəl səsli xanəndə qızlar, Azərbaycan operasının banisi və səhnəmizə "Koroğlu" kimi şah əsər vermiş Üzeyir bəy Hacıbəyli, onun yetişdirdiyi gənc bəstəkarlar, xor ifaçıları, çalğıçılar var idi.

Azərbaycan incəsənət dekadası ictimai həyatımızda böyük bir hadisəyə çevrilmişdi. Ukrayna, Gürcüstan, Özbəkistan və Qazaxıstan öz ustalıqlarını artıq Moskva səhnəsində göstərmişdilər. Azərbaycan nümayəndə heyəti, incəsənət ustaları isə bu respublikaların bədii mədəniyyətinin zənginləşmə ənənəsini davam etdirirdi.

Azərbaycan incəsənət dekadasının iştirakçıları 60 yaşlı zurnaçı Ağabaladan başlayaraq 5 yaşlı Nazlıya qədər hamı, martın 30-da axşam xüsusi qatarla Moskvaya çatdılar.

Azərbaycan SSR Xalq komissarları Soveti yanında İncəsənət İşləri İdarəsi SSRİ-nin paytaxtında dekada münasibətilə xüsusi sərgi təşkil etdi. Sərgidə Azərbaycan Teatr incəsənətinin inkişafı əks etdirilirdi. Burada maraqlı materiallar var idi. Dekada ilə əlaqədar olaraq M.F.Axundzadə adına Azərbaycan Dövlət Opera və Balet Teatrının proqrama daxil edilmiş tamaşaları haqqında 4 kitab buraxıldı. Bu kitablarda bəstəkar R.M.Qliyerin "Şahsənəm", M.Maqomayevin "Nərgiz", Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operası və "Arşın mal alan" musiqili komediyasının qısa məzmunu və bu operalar üzərində görülən işlərdən bəhs edilirdi. Dekadanın proqramına daxil edilmiş Azərbaycan Dövlət Filarmoniyasının konsertinə dair kitab da işıq üzü görmüşdü. Bu kitabda bəstəkar Üzeyir bəy Hacıbəylinin Azərbaycanda birinci dövlət xalq xor dəstəsi haqqında məqaləsi, dövlət rəqs ansamblı və xalq rəqsi haqqında Q.Almaszadənin maraqlı yazısı, Azərbaycan Dövlət Konservatoriyasının elmi-tədqiqat kabinetinin rəhbəri Bülbülün musiqili folklor haqqında və başqa məqalələr çap edilmişdi. Bura həmçinin aşıq yaradıcılığına dair yazılar da daxil edilmişdi. Ümumiyyətlə, bu kitablar Azərbaycan musiqi incəsənətinin tərəqqisini əks etdirirdi.

Aprelin 2-də SSRİ-nin Böyük Akademik Opera Teatrının filialında Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operasının ictimai baxışı olmuşdur. Tamaşada Moskvanın musiqi ictimaiyyəti iştirak edirdi. Operaya gənc dirijor Əşrəf Həsənov dirijorluq edirdi. Qeyd edək ki, tamaşa bu gənc dirijorun diplom işi idi. Aprelin 3-də Moskva Konservatoriyasında Əşrəf Həsənova diplom verildi.

Azərbaycan musiqi mədəniyyətinin böyük bayramına çevrilən incəsənət dekadası aprelin 5-də başladı. Böyük Opera və Balet Teatrının səhnəsi Azərbaycan incəsənətinin canlı və möhtəşəm mənzərəsini əks etdirirdi.

Birinci olaraq Azərbaycan Dövlət Opera və Balet Teatrı "Koroğlu" operasını nümayiş etdirdi. Dillərdə əzbər olan qəhrəmanlıq eposu "Koroğlu"nun dərin məzmunu, ahəngdar musiqisi, gözəl quruluşu, kütləvi səhnələri, opera ifaçılarının məharəti paytaxt sakinləri tərəfindən alqışlarla qarşılandı. Əsər Moskva tamaşaçılarına 4 dəfə göstərildi. Daha sonra R.Qliyerin xalq dastanı əsasında yazdığı "Şahsənəm" operası da böyük müvəffəqiyyət qazandı. Şən musiqili komediya "Arşın mal alan" Azərbaycan xalqının incəsənət dühasının daha bir xüsusiyyətini - onun çox qiymətli şən yumor hissinə malik olmasını Moskva tamaşaçılarına göstərdi. Dekadanın 4-cü günü M.Maqomayevin "Nərgiz" operası özünün aktuallığı və musiqinin çoxsəsli olması etibarilə diqqəti daha çox cəlb etdi. Bundan əlavə, milli musiqi alətləri ilə notlu orkestrin birləşməsindən əmələ gələn böyük dəstənin çıxışı, aşıqların, xor dəstəsinin ifaları, qadın rəssamlarımızdan Reyhan Topçubaşovanın eskizləri əsasında Nuxa və Qarabağ geyimlərinin nümayişi, bu geyimlərdəki bəzəklərin, xəncər, gümüş toqqa va s. kimi digər aksessuarların tamaşaçılara göstərilməsi də əsl incəsənət meydanını xatırladırdı.

On gün davam edən bu dekada Moskva sakinlərinə, incəsənət ustalarına, hökumət rəhbərlərinə Azərbaycan mədəniyyətinin necə böyük uğurlara imza atdığını nümayiş etdirdi.

Moskvada keçirilən Azərbaycan incəsənət dekadası Azərbaycan xalqının tarixinə, onun milli mədəniyyətinə aydın və parlaq səhifələrdən birini yazdı.

**Təranə HƏSƏNOVA,**
**Üzeyir bəy Hacıbəylinin**
**ev-muzeyinin kiçik elmi işçisi**

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
### *açıq tender elan edir*

**LOT - 1.** Mənzil-kommunal xidmətlərinin göstərilməsinin təmin edilməsi məqsədilə tələb olunan müxtəlif növ malların alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, telefon: 496-52-05.

**LOT 1 - 3000,00 manat**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**
**Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştiraketmə haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi tender zərfinin açıldığı gündən sonra azı 90 bank günü təşkil etməlidir;*
- *tender təklifinin 1 faizi həcmində bank təminatı;*
- *tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;*
- *müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı: 5 faiz;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq edilməlidir. Təsdiq məktubu elektron qaydada əldə edildikdə notarial təsdiqlı təqdim edilməlidir);*
- *maliyyə vəziyyəti haqqında hesabat, mənfəət və zərər haqqında hesabat, kapitalda dəyişiklik haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq edilməlidir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının oxşar təyinatlı və müxtəlif növ malların tədarükü sahəsində azı 2 milyon manat həcmində müqavilələr və təhvil təslim aktları təqdim etməlidir;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin,qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *anbar sahəsi və nəqliyyat vasitələri barədə məlumat (əsas şərtlər toplusuna əsasən - Əlavə 1);*
- *tədarük-təchizat zəncirinin idarə olunması üçün müvafiq kadr imkanları barədə məlumat (əsas şərtlər toplusuna əsasən - Əlavə 2);*
- *Mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları tender komissiyasına yazılı şəkildə ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri **20 iyun 2023-cü il saat 17:00-a** qədər, tender təkliflərini və tender təkliflərinin təminatlarını möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə **05 iyul 2023-cü il saat 17:00-a** qədər Nəcəfqulu Rəfiyev, 17 ünvanına təqdim etməlidirlər. İddiaçıların təklifləri **06 iyul 2023-cü il saat 10:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### tabeliyində olan "Dənizçi təmir-tikinti" MMC üçün tələb olunan tikinti materiallarının satın alınması məqsədilə
### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 19 may 2023-cü il saat 16:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1242**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
### gəmiləri üçün ehtiyat hissələrin satın alınması məqsədilə
### *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 19 may 2023-cü il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1016**

***Tender komissiyası***

# Dağlarda 0-4 dərəcə şaxta olacaq

Azərbaycanda mayın 16-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gün ərzində bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, axşam cənub küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 8-12°, gündüz 14-19° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi normadan yüksək - 764 millimetr civə sütunu, nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Gündüz yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 17-22° isti, dağlarda gecə 0-4° şaxta, gündüz 0-5° isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-9°, gündüz 18-23° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntı tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 5-10° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzurda - Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, yüksək dağlıq ərazilərdə 3°-dək şaxta, gündüz 5-10° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz yağıntı tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 17-22° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-8°, gündüz 15-20° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-5° isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz yağıntı tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 17-22° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-11°, gündüz 15-19° isti, dağlarda gecə 4-7°, gündüz 8-12° isti olacaq.


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*
### *abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| ***"Azərpoçt" MMC*** | *(012) 598-49-55, (051) 225-02-13* |
| ***"Azərmətbuatyayımı" ASC*** | *(012) 441-19-91, (050) 322-33-17* |
| ***"Qaya" firması*** | *(012) 566-77-80, (050) 214-40-53* |
| ***"Region Press" MMC*** | *(055) 316-79-01, (050) 316-79-01* |
| ***"Səma-M" MMC*** | *(012) 594-09-59* |
| ***"Ziya" LTD*** | *(012) 497-76-96, (050) 306-77-22* |
| ***"Pressinform" MMC*** | *(012) 598-49-52, (070) 340-01-00* |
| ***"City press" MMC*** | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## BANK ƏMLAKLARININ SATIŞI ÜÇÜN İCTİMAİ BİLDİRİŞ

Pakistan Milli Bankının Bakı filialı bankın aşağıdakı binalarının satışını elan edir və maraqlı tərəfləri möhürlənmiş tender təkliflərinə çağırır.

**Əmlak təfərrüatları:**

| № | Region | Əmlakın növü | Əmlakların təfərrüatları |
|---|---|---|---|
| 1 | Sumqayıt şəhəri | Mənzil | Sumqayıt şəhəri, 9-cu mikrorayon, binanın 2-ci mərtəbəsi, 3 otaqlı, 39,3 kv/m yaşayış, 64,3 kv/m köməkçi, 74 nömrəli evin 94 nömrəli mənzili. |
| 2 | Bakı şəhəri | Fərdi yaşayış evi | Bakı şəhəri, Nəsimi rayonu, Alatava küçəsi 3 ünvanında 0.01116 ha torpaq sahəsində yaşayış sahəsi 57.8 kv.m, yardımçı sahəsi 110.0 kv.m olan 3 otaqlı 108 saylı fərdi yaşayış evi. |
| 3 | Bakı şəhəri | Mənzil | Bakı şəhəri, Xətai rayonu, Nobel prospekti, 0.0917 ha torpaq sahəsində yerləşən 4 mərtəbəli 7 saylı binanın ümumi sahəsi 76.2 kv/m olan 3 otaqlı 16 nömrəli mənzil. |
| 4 | Bakı şəhəri | Qeyri-yaşayış | Bakı şəhəri, Nərimanov rayonu, Heydər Əliyev prospekti 95a, qeyri-yaşayış sahəsinin əmlakının növü: özəl, qeyri-yaşayış sahəsi üzərində hüququn növü: Əmlak, Təyinatı: zirzəmi, ümumi sahəsi: 67 kv/m. |
| 5 | Bakı şəhəri | Fərdi yaşayış evi | Bakı şəhəri, Nərimanov rayonu, Yusif Vəzir Çəmənzəminli küçəsində yerləşən 0.00982 ha torpaq sahəsi, 3 mərtəbəli, 4 otaqlı, 76,4 kvadratmetr yaşayış, 140,1 kv/m yardımçı sahəsi olan 53 nömrəli fərdi yaşayış evi. |
| 6 | Bakı şəhəri | Mənzil | Bakı şəhəri, Binəqədi rayonu, Mir Cəlal küçəsində yerləşən 9 mərtəbəli 123 №-li binada ümumi yaşayış sahəsi 29.11 kv/m olan 2 otaqlı mənzil. |
| 7 | Bakı şəhəri | Mənzil | Bakı şəhəri, Yasamal rayonu, İzmir küçəsində ümumi sahəsi 72,93 kv/m, yaşayış sahəsi 50,83 kv/m olan 5 mərtəbəli 7a №-li bina, 4 otaqlı 30 nömrəli mənzil. |
| 8 | Bakı şəhəri | Mənzil | Bakı şəhəri, Nərimanov rayonu, Teymur Əliyev küçəsi, ev 38, mənzil 18, ümumi sahəsi 80 kv/m, yaşayış sahəsi 49,0 kv/m, köməkçi sahə 31,0 kv/m, qonaq otaqları 3, mərtəbə 5. |
| 9 | Bakı şəhəri | Mənzil | Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Nazim İsmayılov küçəsi, ev 3, mənzil 7, mərtəbə 4, ümumi sahəsi 77,55 kv/m, yaşayış sahəsi, 57,2 kv/m, köməkçi sahə 20,35 kv/m, qonaq otaqlarının sayı 3. |
| 10 | Bakı şəhəri | Mənzil | Bakı şəhəri, Binəqədi rayonu, Cəfər Xəndan küçəsində, 3066-cı məhəllədə 0.1253 ha istifadədə olan 17 mərtəbəli binada 40 a nömrəli yaşayış sahəsi, 81.82 kv/m olan 3 otaqlı (№8) mənzil. |
| 11 | Bakı şəhəri | Mənzil | Bakı şəhəri, Xətai rayonu, Xocalı (indiki Telnov) prospektində 0.19448 ha torpaq sahəsində yerləşən 9 mərtəbəli 8 saylı binada 49.2 kv/m yaşayış sahəsindən ibarət 3 otaqlı 136 saylı tam mənzil. |

***Şərtlər və qaydalar:***

1. Daşınmaz əmlaklar heç bir dəyişiklik edilmədən satışa təklif olunur.
2. Maraqlanan şəxslər (şirkətlər/firmalar/fiziki şəxslər) 1-ci gündən 5-ci günə kimi iş saatları ərzində 09:00-dan 17:00-a kimi (012) 4643052-53 (Anar bəy) telefon nömrəsi vasitəsilə əlaqə saxlayaraq əmlaka baxış keçirə bilərlər.
3. Tender təkliflərinin son təqdim olunma tarixi elan yerləşdirilən tarixdən bir ay müddətinə təyin olunur.
4. Tenderdə iştirak edən tərəflər möhürlənmiş tenderin təqdim edilməsi zamanı bank tərəfindən müəyyən edilmiş əsas vəsaitləri Pakistan Milli Bankının Bakı filialına yatırmalıdırlar.
5. Ədalətli rəqabətin aparılması üçün tender təkliflərinin məxfiliyinə riayət edilməlidir. Tender təklifləri möhürlənmiş zərfdə təqdim edilməli və şirkətin möhürü olmalıdır.
6. Bank daxil olunan təklifləri aldıqdan sonra tenderin açıldığı tarixdən etibarən 30 gün ərzində qalib iddiaçıya məlumat verəcəkdir.
7. Tərəflər bankın KYC / Due Digence ilə bağlı tələblərini tam şəkildə yerinə yetirməlidirlər, yəni tərəflər gələcəkdə hər hansı məhkəmə çəkişmələrinin qarşısını almaq üçün binanın satın alınması ilə bağlı təkliflərində öz resursları haqqında sertifikat verməlidirlər.
8. Tenderin qalibi elan edildikdən sonra 7 iş günü ərzində tender təklifi məbləğinin 50%-ni əlavə olaraq, tenderin qalan məbləği isə onun qəbul edildiyi gündən 30 gün ərzində depozitə qoyulacaq.
9. Tenderin qalibi tenderdən geri çəkilməməsini təmin etmək üçün Pakistan Milli Bankının Bakı filialı ilə depozitə qoyulmuş əsas vəsaitlə bağlı əlavə müqavilə bağlayacaqdır.
10. Uğur qazanmayan iddiaçılara tender təkliflərinin qəbulu/rədd edilməsi prosesi başa çatdıqdan sonra və ya tender təklifinin təqdim olunduğu son tarixdən sonra 30 gün ərzində depozitləri geri qaytarılacaqdır.
11. Qalib iddiaçı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq satış vergisi, qeydiyyat xərcləri və/və ya hər hansı digər tətbiq olunan rüsumlar/vergilər kimi bütün xərcləri öz üzərinə götürəcək.
12. Satış aktı NBP-nin baş ofisinin Kəraçi şəhəri, Pakistanın razılığı ilə Bakı filialı tərəfindən tender təklifi təsdiq edildikdən sonra və bütün müvafiq yerli hüquqi rəsmiləşdirmələr yerinə yetirildikdən, qalan tenderin ödənilməsi şərtilə tenderin qalibi və/və ya onun səlahiyyətli şəxsinin xeyrinə rəsmiləşdiriləcəkdir. Məbləğ və bütün tətbiq olunan ödənişlər əmlakın mülkiyyətinin təhvil verilmə tarixi/saatı alqı-satqı aktının rəsmiləşdirilməsi zamanı razılaşdırılacaq.
13. Bank istənilən vaxt heç bir səbəb göstərmədən hər hansı və/və ya bütün təklifləri rədd etmək/ləğv etmək hüququnu özündə saxlayır.
14. Təklif olunan qiymət, əmanət pulunun depoziti, pasportun surəti, VÖEN-in surəti, adı, ünvanı olan möhürlənmiş tender təklifləri aşağıdakı ünvanlardan hər hansı birinə göndərilməlidir:

**Ünvan: Şeyx Ahtsham Əhməd - Pakistan Milli Bankı - Bakı filialı, Azərbaycan, Bakı şəhəri, Xətai rayonu, 8 Noyabr prospekti 9A**
**E-poçt:sheikh.ahtsham@nbp-baku.az**
**ahtsham.ahmed@gmail.com**

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Arif Qaraşova bacısı

**ŞƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ziyad Səmədzadə, Fikrət Əzizov və Elxan Bəşirov Arif Qaraşova bacısı

**ŞƏFİQƏ QARAŞOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Arif Qaraşova bacısı

**ŞƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Tikilməkdə olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyətinin direktoru Ramiz Vəkilova bacısı

**ÜZEYRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universiteti Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının əməkdaşları Alış Qasımov, Mayis Əliyev, Zahid Cəfərov, Əbülfəz Hüseynov, Lalə Ələsgərova, Mahir Əliyev, Anar Əsədov, Ülkər Əkbərli, Fəridə Aslanova, Nərmin Təhməzli və Vasif Hüseynli kafedranın müəllimi Fəridə Əliyevaya atası

**MƏHƏMMƏDƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5792
Sifariş 1223

Qiyməti 40 qəpik